

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Xarıbülbül" festivalı dünyaya sülhsevərlik mesajı verir"




7

SƏS

№ 081 (6764)

11 may 2023-cü il.
Qiymәti 60 qәpik

## "Bu gün atamın ruhu şaddır, bu gün bizim bütün əcdadlarımızın ruhu şaddır"

2



*Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciət edib*

# Ermənistanın ardıcıl olaraq uğradığı FİASKO



11

### Tahir Budaqov: Heydər Əliyev ideyaları Azərbaycanın milli-mənəvi sərvətidir



7

### Gender bərabər(siz)liyi: Kimdir müqəssir?



12

### "Qərb Ermənistan ordusunu NATO sxemləri üzrə döyüşə hazırlayır"




15

## Aliment ödəməməyin cəzası nədir?



16

## Oxu(t)muram əl çəkin!

*Məlum olduğu kimi, orta məktəb imtahanlari bu il biabırçı nəticələrlə müşayiət olunub. Şagirdlərin çoxu orta bal belə yığa bilməyiblər. Mümkün 300 baldan 100 bal yığanların valideynləri sevinir.*



13

# "Bu gün atamın ruhu şaddır, bu gün bizim bütün əcdadlarımızın ruhu şaddır"

***Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illər ərzində Vətəni, xalqı qarşısında misilsiz xidmətlər göstərmişdir. 1990-cı illərin əvvəllərində müstəqilliyini yenicə bərpa edən Azərbaycan müstəqilliyini itirmək, ölkənin parçalanması təhlükəsi ilə üzüzə qaldığı ən çətin dövrdə xalqın tələbi ilə yenidən hakimiyyətə gələrək ilk günlərdən şəxsiyyətinin böyüklüyünü, əsl dövlət xadimi kimi müdrikliyini ortaya qoydu. Təcrübəli siyasi xadim daxili vəziyyəti sabitləşdirməyə və gənc respublikanı böhrandan çıxarmağa nail oldu. Bu il bildiyimiz kimi, ölkəmizin hr bir yerində, eləcə də onun hüdudlarından kənarda Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi qeyd edilir. Azərbaycan Prezidenti İlham Əliyevin məlum Sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan olunub.***



## *Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciət edib*

"Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik", - deyə bu barədə Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciətində bildirib. Bu təbrik müracətinin Qarabağın incisi Şuşadan edilməsi təsadüfi deyil. "Şuşa Zəfərimizin rəmzidir, Şuşa Zəfərimizin tacıdır. Şuşa işğaldan azad olunanda, bax, bu meydanda qəhrəman Azərbaycan hərbçiləri mənə Şuşanın azad olunması ilə bağlı raport vermişlər. Bu binanın damında Azərbaycan Bayrağı qaldırılmışdır və Şuşanın azad olunması bizim tarixi Zəfərimizin əsas hissəsi idi" – qeyd edən dövlət başçısı ondan bir gün sonra Ermənistanın kapitulyasiya aktına imza atdığını bildirib. Artıq bir neçə gün idi ki, Qarabağ və Şərqi Zəngəzurda olan Cənab Prezidentin iştirakı ilə bir çox tədbirlər keçirilib, təməlqoyma mərasimləri baş tutub. Belə ki, dövlət başçısını bu səfəri çərçivəsində 10 kəndin təməli qoyulub, bir çox açılışlar edilib. "On günə yaxın Qarabağ və Şərqi Zəngəzurda olarkən bir daha əyani şəkildə görürəm ki, Qarabağ və Şərqi Zəngəzur dirçəlir, yollar, körpülər, tunellər, elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar, yaşayış binaları, məscidlər inşa edilir, yenidən qurulur və ya təmir olunur, elektrik xətləri çəkilir", – deyə vurğulayan Prezident bütün bu quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqlarının dayandığını bildirib. Dövlətimizin başçısı Ulu Öndər Heydər Əliyevin Azərbaycan rəhbərlik etdiyi tarixi dövrlərə nəzər salsaq, bütün dövrlərdə öz doğma xalqına sədaqətlə xidmət etdiyini, istər sovet məkanında yaşadığımız illərdə, istərsə də ondan sonrakı dövrdə, müstəqillik dövründə ölkəmizin inkişafında müstəsna xidmətləri olduğunu qeyd edib. Hələ sovet dövründə yaşadığımız illərdə - 1969-82-ci illərdə Azərbaycanı ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə yüksəltmişdir: "Müstəqil Azərbaycanın sənaye və iqtisadi potensialı məhz o illərdə formalaşmışdır. Məhz o illərdə yetişmiş kadrlar müstəqil Azərbaycanda və bu gün də fəaliyyət göstərərək bizim ümumi inkişafımızı təmin edirlər. Heydər Əliyev 1982-87-ci illərdə Sovet İttifaqı Kommunist Partiyasının Siyasi Bürosunun üzvü və Sovet Hökuməti sədrinin birinci müavini kimi daim Azərbaycana öz diqqətini, qayğısını göstərirdi. Məhz bu qayğı və diqqət nəticəsində Azərbaycan o illərdə də uğurla inkişaf edirdi. Azərbaycan xalqının faciələri Heydər Əliyevin siyasi hakimiyyətdən getməsindən sonra başlamışdır. 1987-ci ildə istefa verməsindən iki həftə keçməmiş erməni millətçiləri və onların sovet iqtidarında olan himayədarları ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarıb Ermənistanın tərkibinə verilməsi ilə bağlı məsələ qaldırmışdılar və Azərbaycan xalqının faciələri o gündən başlamışdır". Dövlət başçısı həmin dövrə nəzər salarkən, Heydər Əliyev hakimiyyətdə təmsil olunsaydı, heç vaxt erməni millətçiləri bu çirkin əməllərə əl atmağa cürət etməzdilər, - deyə bildirərək həm erməni millətçiləri, həm də ovaxtkı Azərbaycan rəhbərliyində təmsil olunmuş milli satqınlar faktiki olaraq birləşərək, Heydər Əliyevə qarşı çirkin şər, böhtan kampaniyası aparmışdıqlarını diqqətə çatdırıb. Bütün bunlara baxmayaraq, Heydər Əliyev siyasi fəaliyyətini davam etdirərək Azərbaycanın ən çətin zamanında xalqı ilə birlikdə olmuş, ürəyi Azərbaycanla bir döyünmüşdü.

### HEYDƏR ƏLİYEV AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN GƏLƏCƏK İNKİŞAF STRATEGİYASINI ELAN ETDİ

20 Yanvar Azərbaycan tarixində qanla yazılmış bir səhifə olsa da, bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Xalq o günlərdə böyük bir həqiqəti - həqiqi liderin meydanda olmamasını da bütün mahiyyəti ilə dərk etdi. O müdhiş gündə Ulu Öndər Heydər Əliyev xalqının səsinə hər kəsdən əvvəl səs verdi. Ümummilli Lider Moskvada xüsusi nəzarət altında ola-ola, özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, hadisələrdən dərhal sonra, 1990-cı il yanvarın 21-də ailəsi ilə birlikdə ölkəmizin Moskvadakı Daimi Nümayəndəliyinə gəldi, təcavüzə kəskin etirazını bildirdi, faciəni törədənləri, şəxsən, M.S.Qorbaçovu kəskin ittiham etdi, qoşunların Bakıdan çıxarılmasını tələb etdi. Ulu Öndər Heydər Əliyev bununla, hər şeydən əvvəl, Vətən, xalq qarşısında vətəndaşlıq və milli mövqeyini nümayiş etdirdi. 1990-cı ilin iyul ayında Moskvadan Bakıya gələn Heydər Əliyev ona edilən təzyiqlər nəticəsində doğulduğu şəhərə - Naxçıvana getmiş və orada yaşamağa başlamışdır. Müraciətində Heydər Əliyevin gələcək fəaliyyəti üçün Naxçıvan dövrünün böyük əhəmiyyəti olduğunu bildirən Cənab Prezident müstəqilliyə gedən yolun, məhz Naxçıvandan başlandığını bildirib. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası demokratik qüvvələrin tələbi ilə bir sıra tarixi qərarlar qəbul edildi. Dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu. 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan KP-nin fəaliyyəti dayandırıldı və onun bütün strukturları ləğv edildi. Ali Sovetin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə qəbul etdi. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin Sessiyasında tarixi sənəd qəbul edildi. Amma Azərbaycan müstəqillik əldə etmiş olsa da, ölkədə hökm sürən ictimai-siysi proseslər ölkəni məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. O dövrdə siyasi hakimiyyətdə olanların səriştəsizliyi üzündən vətəndaş müharibəsinə rəvac verildi, milli dövlətçiliyimiz ikinci dəfə məhv olmağın bir addımlığına gətirildi. Belə bir zamanda, xalq milli dövlətçiliyi qorumaq və vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulmaq üçün Ümummilli Lider Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Ulu Öndər Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi. Ulu Öndərin bu qayıdışı Vətənin xilası və xalqın qurtuluşu idi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Bu gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Ümummilli Lider Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycanın siyasi hakimiyyətinə gəlməsəydi, indi nə Azərbaycandan, nə də ölkəmizdəki bugünki əmin-amanlıqdan və inkişafdan danışmaq olmazdı. "Heydər Əliyevə göstərilən inam Azərbaycan xalqının müdrikliyini bir daha göstərdi. Heydər Əliyev 1993-cü ilin oktyabrında böyük səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Dərhal ciddi islahatlara başlanıldı. Siyasi sahədə islahatlar aparıldı, bütün azadlıqlar təmin edildi. AXC-Müsavat cütlüyü tərəfindən tətbiq edilmiş antidemokratik senzura qaydaları ləğv edildi. Azərbaycan dünyaya açıldı, beynəlxalq təcridə son qoyuldu. Çünki bizim torpaqlarımız işğal altında idi, ancaq ovaxtkı hakimiyyətin yarıtmaz fəaliyyəti nəticəsində dünyada elə bir təsəvvür var idi ki, sanki Azərbaycan təcavüzkardır. Yəni, böyük diplomatik səylər göstərildi, Qarabağ həqiqətləri dünya ictimaiyyətinə çatdırıldı, beynəlxalq təşkilatlar işğalla bağlı ədalətli və bizim mövqeyimizi gücləndirən qərar və qətnamələr qəbul etmişlər" - deyə müraciətdə qeyd olunub.

***Ardı Səh. 3***

# "Bu gün atamın ruhu şaddır, bu gün bizim bütün əcdadlarımızın ruhu şaddır"

Əvvəli-Səh-2

### "AZƏRBAYCAN O ÖLKƏLƏRDƏNDİR Kİ, HEÇ BİR KƏNAR QÜVVƏ BİZİM İRADƏMİZƏ TƏSİR EDƏ BİLMƏZ"

Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər mühiti formalaşıb. Ölkəmizdə gənclərin potensialının düzgün istiqamətlənməsinə yönələn tədbirlər dövlətin uzaqgörən siyasətinin göstəricisidir. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafında dərin izlər buraxıb. Gənclərdə bir canlanma baş verdi. Ötən əsrin 90-cı illərinin əvvəlində gənclərdə bir ruh düşkünlüyü var idi. Bunu Heydər Əliyev aradan qaldırdı. Ayrı-ayrı dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək məqsədi ilə Ulu Öndər Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Bu ictimai-siyasi institut gənclər siyasətinin həyata keçirilməsində mühüm rol oynadı və gənclərin fəaliyyətində böyük dönüş yaratdı. Ümummilli Liderin Gənclər Forumunun təşkili ilə bağlı 1995-ci ildə irəli sürdüyü təşəbbüsdən sonra 1996-cı ildən başlayaraq, Azərbaycan gənclərinin forumları keçirildi. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda Ulu Öndər Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoymuşdur. Ulu Öndərin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edildi. "1996-cı ildə Azərbaycanda birinci Gənclər Forumu keçirilmişdir. O vaxtdan bu günə qədər müntəzəm olaraq Gənclər Forumu keçirilir. Qarabağı, Zəngəzuru azad edən məhz gənclər olmuşdur, ovaxtkı gənclər və son 20 il ərzində yetişmiş gənclər", - deyən Prezident İlham Əliyev Ümummilli lider Heydər Əliyevin öz xalqına sıx bağlı olan bir adam olduğunu diqqətə çəkib: "Məhz onun təşəbbüsü ilə Azərbaycan dilinin qorunmasına dair önəmli addımlar atılmışdır, müvafiq sərəncamlar imzalanmışdır. Azərbaycan dilinin qorunması milli kimliyimizin qorunması deməkdir. Azərbaycan dili çox zəngin dildir. Dünyada 50 milyondan çox insan üçün Azərbaycan dili Ana dilidir. Məhz Ulu Öndərin təşəbbüsü ilə Ana dilimizin qorunması istiqamətində atılan addımlar bu gün də davam etdirilir və bu, daim davam etdirilməlidir".

Son illərdə müstəqil Azərbaycanda güclü dövlət idarəçiliyinin mövcudluğu dövlətimizin tarixində ən uğurlu inkişaf dövrü kimi xarakterizə edilir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında güclü iqtisadiyyata, dinamik inkişafa, dünya dövlətləri sırasında xüsusi imicə malik olan ölkəmiz dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən ölkəsi kimi müasir dünyanın çağırışlarına cavab olaraq yeni dövrünü yaşayır. Dövlət başçısının imzaladığı fərman və sərəncamlar, qəbul etdiyi praqmatik, real qərarlar ölkəmizin dinamik yüksəlişini təmin edib. Regionun ən güclü və nüfuzlu dövlətinə çevrilən Azərbaycanın iştirakı olmadan regionda hansısa bir strateji layihə reallaşdırılmır. Əlbəttə ki, Cənab İlham Əliyevin 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkəmiz bütün sahələr üzrə sürətli inkişaf yoluna qədəm qoydu. Dövlət başçısının verdiyi bütün vədlər və təqdim etdiyi proqramlar ardıcıllıqla və dəqiqliklə yerinə yetirilib. Əldə edilən uğurlar, nailiyyətlər Prezident İlham Əliyevin siyasətinə olan etimadı daha da gücləndirib. 2003-cü il oktyabrın 1-də Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqına müraciət edərək, namizədliyini siyasi varisi Cənab İlham Əliyevin xeyrinə geri götürdüyünü elan edərkən bildirmişdi: "İnanıram ki, Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu inam Ulu Öndərin siyasi varisi Cənab İlham Əliyevin üzərinə böyük məsuliyyət qoyurdu. Cənab İlham Əliyev 2003-cü ildə ölkənin Prezidenti vəzifəsinin icrasına başladığı zaman çıxışında bildirdiyi sözləri xatırlatmaq yerinə düşər:"Milliyyətindən, dinindən, siyasi əqidəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam və Azərbaycan xalqının etimadını doğruldacağam". Cənab İlham Əliyev hər bir Azərbaycan vətəndaşının Prezidenti oldu və xalqın etimadını doğrultdu. Azərbaycan Prezidenti "2003-cü ildən bu günə qədər 20 il keçib. Bu 20 il sürətli inkişaf və tərəqqi illəri olmuşdur. Uzun illər bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf edəcək. Bizim uzunmüddətli strategiyamız çox aydındır və daxili resurslara hesablanıb. Azərbaycan Ulu Öndərin yolu ilə gedərək öz dövlət müstəqilliyini daha da möhkəmləndirib. Bu gün, sözün əsl mənasında, müstəqil xarici və daxili siyasət apara bilən ölkələrin sayı dünyada çox məhduddur. Azərbaycan o ölkələrdəndir ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Çünki güclü iradəmiz var, güclü ordumuz var və eyni zamanda, güclü imkanlarımız var. Maliyyə resurslarımız, maddi vəziyyətimiz imkan verir ki, biz ancaq öz daxili resurslarımız hesabına yaşayaq və yaşayırıq, daxili resurslar hesabına Qarabağı yenidən qururuq, Zəngəzuru yenidən qururuq", - deyə Prezident müraciətində bildirib: "Müstəqillik ən böyük nemətdir, ən böyük sərvətdir. Bu gün biz bütün azərbaycanlılar qürur hissi ilə qeyd edirik ki, biz sözün əsl mənasında, müstəqil ölkə kimi yaşayırıq. Azərbaycanda təhlükəsizlik təmin edilir, Azərbaycanda əmin-amanlıq hökm sürür. İndi bir daha demək istəyirəm ki, dünyanın hər bir yerində müharibələr, toqquşmalar, qarşıdurmalar hökm sürür, hər gün biz bunu görürük. Azərbaycan sabitlik adasıdır, təhlükəsizlik adasıdır. Bu da böyük sərvətdir və Azərbaycan xalqı bunu yaxşı bilir. Çünki biz müstəqilliyimizin ilk illərində çətin günlər yaşamışdıq".

### "BU GÜN QARABAĞ DİRÇƏLİR, ZƏNGƏZUR DİRÇƏLİR, BİZ ÖZ DOĞMA TORPAQLARIMIZDA QURURUQ, YARADIRIQ"

"Bax, bu gün durduğum Şuşa şəhərinin mərkəzində bunu bir daha demək istəyirəm ki, Azərbaycanda yaşayan bütün xalqların qanı, canı bahasına biz bu gün burada dayanmışıq. Bu, böyük sərvətdir. Amma elə ölkələr var ki, orada milli, dini zəmində qarşıdurmalar baş verir, toqquşmalar baş verir. Elə ölkələr var ki, orada heç bir başqa xalqın nümayəndəsi yaşaya bilmir, elə Ermənistanı misal göstərək. Əhalisinin 99,9 faizi ermənilərdən ibarət Ermənistan bax, bu rəqəmlə faktiki olaraq öz faşist siyasətini göstərir. Ancaq vaxt var idi indiki Ermənistanın əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edirdi, digər millətlərin nümayəndələri təşkil edirdi. İndi Avropanın bəzi ölkələrində, Ermənistana böyük rəğbətlə yanaşan ölkələrdə islamofobiya baş alıb gedir, qanunlar qəbul edilir, dinimizə qarşı çirkin əməllər törədilir, "Qurani-Kərim" yandırılır və buna da biganə yanaşırlar" - deyən Prezident bunun bizim həyat tərzimiz və eyni zamanda, siyasətimiz olduğunu vurğulayıb. Ardıcıl olaraq həyata keçirilmiş məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətini daha da gücləndirmiş və 44 günlük Vətən müharibəsində parlaq qələbənin qazanılmasına güclü zəmin yaratmışdır.

Bu gün işğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işləri aparılır. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə qeyd etmişdir ki, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Bu bölgələrin potensialı və nəzərdə tutulan bərpa və yenidənqurma işləri həqiqətən də həmin ərazilərin cənnətə çevriləcəyini deməyə tam əsas verir."Bu gün Qarabağ dirçəlir, Zəngəzur dirçəlir, biz öz doğma torpaqlarımızda qururuq, yaradırıq. Qarabağın və Zəngəzurun bərpası missiyasını da uğurla icra edəcəyik. Necə ki, Ulu Öndərin vəsiyyətini yerinə yetirərək öz doğma torpaqlarımızı azad etdik,.. ərazi bütövlüyümüzü bərpa etdik, aprelin 23-də Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qurduq, orada Azərbaycan Bayrağını qaldırdıq, ərazi bütövlüyümüzü tam bərpa etdik, eləcə də mülki missiyamızı - bu gözəl diyarın bərpası missiyasını da şərəflə yerinə yetirəcəyik.

Mən əminəm ki, bu gün atamın ruhu şaddır, bu gün bizim bütün əcdadlarımızın ruhu şaddır. Biz elə etməliyik ki, öz fəaliyyətimizlə daim onların ruhunu şad edək".

***Zümrüd BAYRAMOVA***

# Birinci vitse-prezident Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə paylaşım edib

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə rəsmi instaqram hesabında paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir.***




Heydər Əliyevin nurlu xatirəsinə

10.05.2023. Şuşa.

Əsrarəngiz və bənzərsiz Şuşa.

Ağaclar sıx çətirli, hava təmiz, şəffaf, nəfəs sanki həyatverici eliksir kimidir. Səma son dərəcə mavidir. Daş döşənmiş dar küçələr. Yerlə-yeksan olmuş evlər, dağıntılar, amma özünəməxsus, doğma görkəmini qoruyub saxlamış dağıntılar.

Ətrafda biçilməmiş sıx otlar. Bəzi yerlərdə al lalələr baş qaldırıb. Şuşanın sədasını necə təsvir etmək olar? Bəzən bu, tam, lal sükutdur. Quşların səsi, yarpaqların pıçıltısı şəhərin nəfəsidir.

Gəzmək, küçə və döngələr boyu dolanmaq, ağaclara toxunmaq, qədim daşlara sığal çəkərək ovcunla güllələrin izini silmək istəyirsən.

Cıdır düzündə vaxtın necə keçdiyini hiss etmirsən. Ətrafda ancaq ucsuz-bucaqsız dağlar və mavi səma görünür. Otun üzərində uzanasan və bəxtin gətirsə, qartalların səssiz uçuşunu - sanki yavaşıdılmış çəkilişdəki kimi onların nəhəng qanad çalmağını seyr edəsən.

Sehrli Şuşa şəhərində qəlbində olan hissləri təsvir etmək üçün sözləri necə seçəsən? Fikirlər məni keçmişə aparır...

Ölkə uçurum kənarındadır, işğal olunmuş torpaqlar, xəyanətin qurbanı olmuş Şuşa.

Köçkünlər, köçkünlər, yüz minlərlə köçkün...

Çaşqınlıq, bəla və sonsuz ağrı-acılar. Bax, belə bir vaxtda - 1993-cü ilin payızında Siz – yaşlı, ağır xəstəlik keçirmiş İnsan Azərbaycana rəhbərlik etməyə başladınız. Sanki Siz və ölkə eyni zamanda xəstəliyə düçar olmuşdunuz. Sanki itkilərin, ədalətsizliyin şiddətli ağrısı Sizi yenidən xalqa, xalqı isə Sizə qaytardı.

Sonrası Uca Tanrı tərəfindən yazılmışdır. Sonra bizi ecazkar Şuşa şəhərinə uzun yol gözləyirdi. Sonra sağalma, dirçəliş, qurub-yaratma. Qürurumuzu özümüzə qaytarma. Zəfər qazanıldı!

Uca Tanrının yazısı Sizin müdrikliyiniz, sarsılmaz, möhkəm iradəniz, Vətəninizə, bizim hər birimizə sonsuz sevginiz sayəsində gerçək oldu. Gözlərimin önündə sevincli, işıqlı, həyəcanlı xatirələr canlanır. Bu xatirələr mənimlədir, mənimlə olacaq.

Sizin gözləriniz, təbəssümünüz, gülüşünüz və göz yaşlarınız. Danışdığınız əhvalatlar, verdiyiniz məsləhətlər, heç də asan olmayan suallara cavablarınız. Bağışlamaq, sevmək bacarığınız.

Sizin əyilməzliyiniz, iradəniz, öz xalqınıza inamınız – bütün bunlar əbədi olaraq bizimlədir. Orada - uzaqlarda, səmalarda Siz Şuşanın səsini eşidir və hamımıza öz sevginizi, bizə, Azərbaycana inamınızı göndərirsiniz.

Heç də təsadüfi deyil ki, bu gün Cıdır düzünün səmasında məğrur qartallar qanad çalır.

Sizə sonsuz ehtiramla.

# ƏBƏDİYAŞAR LİDER!

*Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Ulu Öndər Heydər Əliyevin Fəxri xiyabanda məzarını ziyarət ediblər*









Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın dahi oğlu və Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümüdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Ulu Öndərin məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər. Burada fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu Öndərin xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndi. Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Ümummilli Liderin xatirəsini dərin hörmətlə yad etdilər.

Sonra dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular. Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olunub.

# "Azərbaycan danışıqlar prosesinin və normallaşmanın tərəfdarıdır"

***Bu yaxınlarda keçiriləcək Brüssel danışıqları Ermənistan-Azərbaycan normallaşma prosesinin tərkib hissəsidir. Biz bu danışıqlara prosesin tərkib hissəsi kimi baxmalıyıq. Ümumilikdə biz prosesi müsbət qiymətləndiririk. Biz danışıqlar prosesinin və normallaşmanın tərəfdarıyıq. Əfsuslar olsun ki, vaxtaşırı Ermənistan tərəfindən qeyri-ardıcıl, ziddiyyətli yanaşmalar və fikirlər səslənir. Hesab edirik, bəlli bir fasilədən sonra liderlər səviyyəsində görüşün keçirilməsi ümumilikdə müsbət haldır. Danışıqlar və onların nəticələrini gözləməyə yaqin ki, çox qalmayıb.***

AZƏRTAC xəbər verir ki, bunu mayın 10-da Fəxri xiyabanı ziyarət edən xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərin sualına cavabında deyib.

ABŞ-da baş tutmuş görüşlərin əsas mənasının sülh müqaviləsi ətrafında aparılan danışıqlar olduğunu vurğulayan nazir bildirib: "Bilirsiniz ki, sülh müqaviləsi ilə bağlı təşəbbüslər Azərbaycan tərəfindən səsləndirilmişdir. Hələ 2021-ci ildə Prezident İlham Əliyev bunu ilk dəfə səsləndirdi. 2022-ci ilin fevralında Azərbaycan beş baza prinsipini irəli sürdü. Nəhayət 2022-ci ilin oktyabrında ilk dəfə Cenevrədə sülh müqaviləsi danışıqlarına başlanıldı. Danışıqlar Azərbaycanın ilkin təqdim etdiyi genişlənmiş baza prinsipləri ətrafında aparıldı. Daha sonra noyabrda Vaşinqtonda görüşlər oldu. Danışıqlar zamanı dekabrda həmin şəhərdə üçüncü görüşün keçirilməsi planlaşdırıldı. Ancaq Ermənistan tərəfi müxtəlif səbəblər gətirərək üçüncü şəxsi görüşdən imtina etdi. Lakin ABŞ-ın vasitəçiliyi ilə bizim dəfələrlə çağırışlarımız nəticəsində Ermənistan danışıqlar masasına yenidən qayıtdı. Vaşinqtonda bəlli maddələr üzrə razılaşması əldə olundu. Belə demək mümkündürsə, biz bir addım irəli getdik. Hər zaman olduğu kimi, Azərbaycan yenə də prosesə sadiqliyini nümayiş etdirir".



# Moldovanın xəbər portalında Heydər Əliyevin 100 illiyi ilə bağlı məqalə dərc edilib

Moldovanın "Rupor" xəbər portalında Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı məqalə dərc edilib. AZƏRTAC-ın Ukrayna və Moldova üzrə xüsusi müxbiri Emil Hüseynlinin müəllifi olduğu məqalədə Heydər Əliyevin Azərbaycan və Moldova münasibətlərinin inkişafında misilsiz xidmətindən bəhs edilib.

Məqalədə qeyd olunur ki, iki ölkə arasında əməkdaşlığın inkişaf tarixinin böyük hissəsi Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevlə bağlıdır. Heydər Əliyev Azərbaycan-Moldova dostluğunun əsasını qoyub. Azərbaycan yürütdüyü uğurlu xarici siyasət sayəsində bir çox dövlətlərin, o cümlədən Moldovanın strateji tərəfdaşıdır.

Məqalədə Moldovanın sabiq Prezidenti Pyotr Luçinskinin AZƏRTAC-a müsahibəsində Ulu Öndərlə bağlı xatirələrinə də yer verilib. Qeyd olunur ki, Heydər Əliyevin qətiyyəti və möhkəm iradəsi ona müxtəlif çətin vəziyyətlərdə məsuliyyətli, düzgün qərarlar qəbul etməyə imkan verirdi.

Müəllif yazır ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ümummilli Liderin siyasətini uğurla davam və inkişaf etdirir. Azərbaycan Prezidenti atasının vəsiyyətini yerinə yetirərək 2020-ci ildə işğal altındakı torpaqları azad edib.

Diqqətə çatdırılıb ki, bu gün Azərbaycanda Ulu Öndər erası davam edir, zamanın fövqündə dayanan Heydər Əliyev ideyaları yaşayır, qalib gəlir. Nə qədər ki, Azərbaycan var, Ulu Öndərin adı və siyasi kursu yaşayacaq, ölkəmizin inkişaf salnaməsi parlaq səhifələrlə dolacaq.



# Şuşa işıqlı gələcək yolunda!









***Təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının mədəniyyət beşiyi qədim Şuşa bu gün yeni bir dövrünü yaşayır. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ildə keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayında Ulu Öndərin dediyi tarixi sözləri diqqətə çəkmək yerinə düşər. O, demişdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır.***

Bu gün Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusu Ulu Öndərin bu sözlərini gerçəyə çevirdi və artıq bütün dünya bunun şahidi oldu. Şuşamız 44 günlük Vətən müharibəsində azad olundu. Şuşa şəhəri xalqımız üçün son dərəcə əziz, müqəddəs bir məkandır və bu şəhərə olan sevgi, bağlılıq hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır. Şuşa milli mədəniyyətimizin, incəsənətimizin beşiyidir. Erməni qəsbkarları 1992-ci il mayın 8-də işğal etdikləri Şuşanı uzun illər bütün dünyaya erməni şəhəri kimi tanıtmağa çalışsalar da buna nail ola bilmədilər. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında igid əsgər və zabitlərimiz 2020-ci il noyabrın 8-də Şuşanı işğaldan azad etməklə Vətən müharibəsini tarixi Qələbə ilə başa vurdular və bununla da Azərbaycan ərazilərində ikinci erməni dövləti yaratmaq arzularına birdəfəlik son qoydular.

Qafqazın incisi, mədəniyyətimizin beşiyi Şuşanın ötən əsrin 70-ci illərindən həyatında yeni bir inkişaf dövrü başlayır. Ulu Öndər Heydər Əliyev tərəfindən şəhərin inkişafına xüsusi diqqət yetirilib. 1977-ci ildə Azərbaycan hökuməti iki tarixi qərar qəbul edib. Həmin qərarların yerinə yetirilməsi Şuşanın sosial və mədəni inkişafında böyük əhəmiyyət kəsb edib. Şəhərdə yeni sənət ocaqları yaradılıb, bərpa, tikinti və yaşıllaşdırma işlərində yüksək nailiyyətlər qazanılıb. Tarixi-memarlıq və şəhərsalma abidəsinin yüksək bədii əhəmiyyəti nəzərə alınaraq, 1977-ci ildə Şuşa tarixi-memarlıq qoruğuna çevrilib.

## "ÜMUMDÜNYA MƏDƏNİ VƏ TƏBİİ İRSİN MÜHAFİZƏSİ HAQQINDA" KONVENSİYAYA ZİDD ƏMƏLLƏR

1992-ci ildə Şuşa şəhərinin ermənilər tərəfindən işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600-ə yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evinin, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər. İşğal olunmuş ərazilərdə erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Silahlı münaqişə baş verdikdə, mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun 1972-ci il Konvensiyasına ziddir.

## XVIII ƏSRDƏ İNŞA OLUNAN MEHMANDAROVLARIN MALİKANƏ KOMPLEKSİ

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Şuşada abadlıq-quruculuq işləri geniş vüsət alıb. Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şuşaya səfəri çərçivəsində Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Mehmandarovların malikanə kompleksinin açılışı olub.

Qeyd edək ki, Mehmandarovların malikanə kompleksi Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa olunub. Yaşayış kompleksinə böyük yaşayış binası, kiçik yaşayış binası, ailə məscidi və bulaq daxildir. 2021-ci ilin oktyabr ayından etibarən Mehmandarovların malikanə kompleksində, ərazidəki ailə məscidi və bulaqda təmir-bərpa işləri aparılıb, bulağın damı əvvəlki vəziyyətinə gətirilib. Bulaq Prezident İlham Əliyev 2022-ci ilin sentyabrında kompleksdə bərpa işlərinin gedişi ilə tanış olarkən istifadəyə verilib. Yaşayış evinin həyətində XX əsrin əvvəllərinə aid tarixi fayton da dövrünün texnologiyalarına uyğun bərpa edilib. Görülmüş işlərdən sonra malikanə kompleksində muzey ekspozisiyası qurulub. Ekspozisiyada Azərbaycan Milli Kino-Foto Sənədləri Arxivi, Milli Azərbaycan Tarixi Muzeyi, Azərbaycan Milli İncəsənət Muzeyi, AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun materialları, həmçinin elmi ədəbiyyat mənbə qismində istifadə edilib. Xatırladaq ki, işğaldan azad olunan ərazilərdə genişmiqyaslı quruculuq işləri, mədəni-dini abidələrimizin bərpası davam edir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu işğaldan azad olunan ərazilərdə 2020-ci il dekabrın 8-dən etibarən mədəni-dini abidələrin, məscidlərin bərpası layihələrinin icrasına başlayıb. Bununla da Heydər Əliyev Fondu tarixi bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə vətəndaş cəmiyyətinin üzvü kimi öz dəstəyini göstərir. Aparılan işlərə yerli ekspertlərlə yanaşı, xarici mütəxəssislər də cəlb olunub. Heydər Əliyev Fondunun Qarabağdakı bərpa layihələrinin bir hissəsi isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində həyata keçirilir. Bunların sırasına dahi Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin büstünün yenidən qurulması, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin Şuşada yenidən ucaldılması və digərləri daxildir.

Heydər Əliyev Fondu hazırda Şuşada daha bir neçə layihənin bərpasını başa çatdırıb. Mehmandarovların malikanə kompleksi də bu layihələrdən biridir.

Ardı Səh. 6

# Şuşa işıqlı gələcək yolunda!

Əvvəli-Səh-5

### ŞUŞAMIZ ƏLAMƏTDAR HADİSƏLƏRƏ ŞAHİDLİK EDİR

Şuşada Yaradıcılıq Mərkəzinin Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra açılışı olub. Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri açılış mərasimində iştirak ediblər. Şuşa şəhərindəki Yaradıcılıq Mərkəzinin hazırkı binası ölkə əhəmiyyətli memarlıq abidəsi siyahısındadır. Binada vaxtilə Ağa Qəhrəman Mirsiyab oğlunun Karvansarası yerləşib. Heydər Əliyev Fondu tərəfindən 2022-ci ildən aparılan bərpa işləri zamanı bina ilkin vəziyyətinə qaytarılıb. Sonradan alçıpanla bağlanılan qapı, pəncərə, tavan və arakəsmə divarlar sökülərək binanın tarixi formasına qaytarılması işləri yerinə yetirilib. Dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri Yaradıcılıq








Mərkəzindəki ekspozisiya salonunda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində açılan "Heydər Əliyev və Qarabağ" sərgisi ilə tanış olublar. Sərgidə Ulu Öndər Heydər Əliyevin Qarabağda sosial, iqtisadi, siyasi və mədəni inkişaf istiqamətindəki xidmətlərini əks etdirən nadir fotoşəkillər, sənədlər və videomateriallar nümayiş olunur.

Bir çox əlamətdar hadisələrə şahidlik edən Şuşamızda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvlərinin iştirakı ilə mayın 10-da Şuşa Otel-Konqres Mərkəzi Kompleksinin açılışı olub. Erməni işğalı dövründə burada Azərbaycan Prezidentinin təbirincə desək, "şeytan yuvası" – "parlamentin" binasının tikintisi planlaşdırılırdı. Ancaq indi həmin yerdə beşulduzlu otelin açılışı gerçəkləşdirilir. Təməli 2021-ci il avqustun 29-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulan Şuşa Otel-Konqres Mərkəzi Kompleksi şəhərin mərkəzində - Zəfər yolunun üzərində yerləşir. 2022-ci ildə – "Şuşa İli"ndə Karvansaray konsepti əsas götürülən layihənin inşasına başlanılıb. Tikinti işlərinə yerli və xarici şirkətlər cəlb edilib. Bina həm klassik, həm də postmodern memarlıq üslubunda layihələndirilib və mürəkkəb konstruktiv quruluşa malikdir.

Kompleks fərdi üslubu, yüksək keyfiyyəti və çoxsaylı xidmət növləri ilə fərqlənir. Nadir



memarlıq həlli ilə diqqəti cəlb edən, dörd mərtəbədən və zirzəmidən ibarət Şuşa Otel-Konqres Mərkəzi Kompleksində 154 otaq, konfrans və ziyafət zalları, restoran, hovuz, SPA, fitnes və digər xidmət bölmələri yaradılıb.

Qeyd edək ki, Şuşa Otel-Konqres Mərkəzi Kompleksinin kitabxanasında 1000-ə qədər kitab mövcuddur. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY, ölkəmizdəki bir sıra səfirliklər (Türkiyə, Qazaxıstan, Qırğızıstan, Macarıstan, Özbəkistan, Türkmənistan) və Tatarıstanın daimi nümayəndəliyi bu kitabxanaya ümumilikdə 215-ə qədər kitab hədiyyə edib.

Oteldə "Miras Rəsm Qalereyası" tərəfindən Azərbaycanın mədəni irsinə həsr olunan, "Doğma Mədəniyyət Ocağımız" şüarı altında sərgi açılıb. Sərgidə Qarabağdan olan korifey sənətkarlarımızın, eləcə də Azərbaycanın bu bölgəsindən ilham almış şəxslərin əsərləri nümayiş olunur. Ekspozisiyada Xalq rəssamları Nadir Əbdürrəhmanov, Maral Rəhmanzadə, Altay Hacıyev, Səttar Bəhlulzadəyə məxsus 23 rəsm əsəri, o cümlədən qarabağlıların portretləri, eləcə də bu ərazinin gözəl dağ mənzərələri yer alıb. Qarabağ mövzusundan ilhamlanan Xalq rəssamı Akif Əsgərovun, heykəltaraşlar Cavanşir Məmmədovun və Müşfiq Heydərovun 6 sənət nümunəsi də tamaşaçılara təqdim olunur.

### KEÇMİŞ MƏCBURİ KÖÇKÜNLƏR TEZLİKLƏ ƏZƏLİ TORPAQLARIMIZA - ŞUŞAYA QAYDACAQLAR

Bütün bu və ya digər açılış mərasimləri ilə yanaşı, Dövlətimizin başçısı Şuşada 17 binadan ibarət 2-ci yaşayış kompleksinin təməlini qoydu. Şuşa şəhərinin Baş planına uyğun olaraq, D4 zonasında 4,25 hektar ərazidə inşa ediləcək kompleksdə ikimərtəbəli və üçmərtəbəli binalar tikiləcək. Kompleksdəki 238 mənzildən 119-u ikiotaqlı, 119-u isə üçotaqlı olacaq. Bu yaşayış kompleksində sakinlərin rahatlığı üçün hər cür şərait yaradılacaq, istirahət, idman, uşaq əyləncə sahələri istifadəyə veriləcək, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Şuşanın tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması bu məkana xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Cənab Prezident çıxışlarını birində "Şuşa 28 il yarım əsarətdə idi, ancaq əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, milli ruhunu qorudu, Azərbaycan ruhunu qorudu", - deməklə bu tarixi şəhərin məğrurluğunu, müqəddəsliyini ifadə etmiş oldu.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Şuşa şəhərində 23 binadan ibarət yaşayış kompleksində aparılan tikinti işlərinin gedişi ilə tanış olublar. 23 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Burada 8 binanın tikintisinə ötən il iyulun 1-də, 15 binanın inşasına isə sentyabrın 1-də başlanılıb. Kompleksin tikintisinin bu ilin sonunda başa çatdırılması planlaşdırılır. Yaşayış kompleksində ümumilikdə 450 mənzil istifadəyə veriləcək. Burada 28 birotaqlı, 195 ikiotaqlı, 190 üçotaqlı, 30 dördotaqlı və 7 beşotaqlı mənzil olacaq. Bu kompleksdəki mənzillərin əksəriyyəti keçmiş məcburi köçkünlərin istifadəsinə veriləcək. Mənzillərin bir hissəsi isə Şuşada çalışan işçilərin xidməti istifadəsi üçün nəzərdə tutulub. Üçmərtəbəli və beşmərtəbəli binalardan ibarət kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılacaq. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

Görülən və görüləcək bütün işlər bunlarla bitmir. Azad Şuşamız müasir bir məkana çevrilir. Səfər çərçivəsində Heydər Əliyev və 8 Noyabr küçələrinin kəsişməsində lövhələrin açılışı, Şuşada Yuxarı Gövhər Ağa məscidinin yenidənqurma və bərpa işlərindən sonra açılışı, Saatlı məscidinin və Milli Xalça Muzeyinin Şuşa filialının açılışları və s. Şuşanın yenidən qurulmasının təzahürüdür. Şuşa yaşayır və qaynar, yeni dövrü onun işıqlı gələcəyinin lap yaxında olduğundan xəbər verir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycanın özü qədər əbədi lider!

*Yeni Azərbaycan Partiyasının nümayəndələri ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər*








***Mayın 10-da müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabana gələrək Ulu Öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.***

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Azərbaycanın müstəqil dövlət kimi inkişafı və tarixi uğurlar qazanması ümummilli lider Heydər Əliyevin titanik fəaliyyəti, məqsədyönlü siyasəti və əbədiyaşar ideyaları ilə bağlıdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2023-cü il respublikamızda "Heydər Əliyev İli" elan edilmişdir. Ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü həm respublikamızda, həm də onun hüdudlarından kənarda təntənə ilə qeyd edilir.

Bu gün qüdrətli və qalib Azərbaycan dövləti ümummilli lider Heydər Əliyevin siyasi varisi, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə tərəqqi və Zəfər yolunda inamla irəliləyir, yeni-yeni nailiyyətlərə imza atır.

# Tahir Budaqov: Heydər Əliyev ideyaları Azərbaycanın milli-mənəvi sərvətidir



"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan olunub. Bu il ərzində istər respublikamızda, istərsə də onun hüdudlarından kənarda müxtəlif tədbirlər keçirilir. Heydər Əliyev Azərbaycan xalqının xilaskarı, müstəqil dövlətimizin qurucusu kimi müasir tariximizdə özünəməxsus yer tutan böyük şəxsiyyətdir".

Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov jurnalistlərə açıqlamasında söyləyib. Tahir Budaqov bildirib ki, ulu öndər Heydər Əliyev istər keçmiş Sovet İttifaqı dövründə, istərsə də müstəqillik illərində Azərbaycanın inkişafı və tərəqqisi üçün misilsiz xidmətlər göstərib: "Heydər Əliyev ideyaları Azərbaycanın milli-mənəvi sərvətidir. Bu gün də Azərbaycanın əldə etdiyi bütün uğurlar Heydər Əliyev siyasətinin təntənəsi kimi qəbul olunmalıdır".

"Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında ən böyük xidmətlərindən biri də siyasi varisliyin təmin olunmasıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 44 günlük Vətən müharibəsində ölkəmizin ərazi bütövlüyünü təmin etməklə Heydər Əliyevin ən böyük arzusunu gerçəkləşdirib. Ona görə də bu gün Azərbaycan xalqı böyük qürur və fəxarətlə Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə Fəxri xiyabana axın edərək Ulu Öndərin əziz xatirəsini ehtiramla yad edir",- deyə YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri vurğulayıb.

# "Xarıbülbül" festivalı dünyaya sülhsevərlik mesajı verir"




"Şuşa azad edildikdən sonra "Xarıbülbül" musiqi festivalının artıq üçüncüsü keçirilir. Bu festivalın özünəməxsus tarixçəsi var". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Aqil Məmmədov deyib.

O, qeyd edib ki, 1989-cu ildə məşhur xanəndəmiz Seyid Şuşinskinin 100 illiyi ilə əlaqədar təşkil olunan "Xarıbülbül" festivalı çox təəssüflər olsun ki, torpaqlarımızın, Şuşanın işğal olunması səbəbiylə 1991-ci ildə dayandırılmışdı: "Lakin Azərbaycan Prezidenti İlham Əliyev 2021-ci il may ayının 7-də Şuşanın mədəniyyət paytaxtı elan edilməsiylə bağlı sərəncam imzalamışdı. Məhz həmin sərəncamdan sonra birinci festival may ayının 12-13-ü tarixlərində keçirilmişdi. Birinci festivalda şəxsən özüm çox həvəslə, qürurla iştirak etmişəm. Bunlar hamısı ölkə başçımızın, Ulu Öndər irsinin uğurlu siyasətinin nəticəsidir. Daha sonra "Xarıbülbül" festivalı Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2022-ci ildə keçirildi".

Millət Vəkili sözlərinə bu cür davam edib: "Mən deyərdim ki, 2023-cü ildə keçirilən festival çox fərqlidir. Məlum olduğu kimi, Beynəlxalq Türk Mədəniyyət Təşkilatı (TÜRKSOY) Şuşanı Türk dünyasının mədəniyyət paytaxtı elan etmişdi. Bugünkü tədbirin fərqli tərəfi onun beynəlxalq səciyyə daşımasıdır. Bu da Şuşaya yeni bir nəfəs verdi. Nəinki türk dünyasına daxil olan dövlətlərin iştirakçıları, eyni zamanda, regionda yaşayan türkdilli xalqların kollektivləri də bu gün orada iştirak edir, öz məharətlərini göstərirlər.

Əlavə olaraq qeyd etmək istərdim ki, bugünkü festivalda "TÜRKSOY"-a daxil olan ölkələr- Qazaxıstan, Qırğızıstan, Macarıstan, Moldova Respublikasının Qaqauziya Muxtar əyalətindən gəlmiş kollektivlər, Rusiya Federasiyasının Altay, Hakasiya, Tatarıstan Cümhuriyyətindən gəlmiş kollektivləri, Şimali Kipr Türk Respublikası, Türkiyə, Türkmənistan təmsil olunacaqlar. Bu, bütün türk dünyasının həmrəyliyinin, mədəniyyətinin nümayişidir. Onlar Azərbaycanın, ümumilikdə türk dünyasının mədəniyyət paytaxtı olan Şuşanın qısa zaman kəsiyində necə sürətlə, gündən-günə inkişaf etdiyinin, Şuşanın əvvəlki gözəlliyinin bərpa edilməsinin canlı şahidi olurlar. Prezidentin festival ərəfəsində Şuşada olması, yeni lahiyələrin təməlqoyma proseslərində iştirak etməsi, eyni zamanda Mehriban xanım Əliyevanın da həmin tədbirlərə verdiyi dəstək onu göstərir ki, Azərbaycan gündən-günə inkişaf edir, çiçəklənir. Öz mədəniyyətini bütün dünya ölkələrinə tanıdır. Biz "Xarıbülbül" festivalı vasitəsilə Azərbaycanın sülhsevər bir dövlət olmasının, həmçinin bütün dünyaya sülh arzulamasının mesajını veririk.

Son olaraq Şuşada keçirilən "Xarıbülbül" musiqi festivalını çox yüksək qiymətləndirir, qürur hissi ilə bildirirəm ki, bütün türk dünyası bir aradadır və onlar öz mədəniyyətləriylə bütün dünyaya sülhsevər bir millət olduqlarını bir daha isbat edirlər".

***Ləman Əlizadə***

# Azərbaycan dövlətçiliyinin xilaskarı!













***Müasir müstəqil Azərbaycanın memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü tamam olub. Əlamətdar yubiley Bakıda, bölgələrdə, o cümlədən Şuşada, eləcə də xarici ölkələrdə geniş qeyd edilib.***

Mayın 10-da Ulu Öndərin Fəxri xiyabandakı abidəsi önündə böyük izdiham yaşanıb, əziz xatirəsi dərin ehtiramla anılıb. Səhər saatlarından başlayaraq axşamadək müxtəlif idarə və müəssisələrin, təhsil ocaqlarının kollektivləri, hərbçilər, Qarabağ müharibəsinin veteranları, paytaxt sakinləri Fəxri xiyabana gələrək Ulu Öndərin məzarını ziyarət edib, xatirəsini ehtiramla anıblar. Məzar və abidə önünə təzə-tər güllər düzülüb, əklillər qoyulub. Dahi şəxsiyyətin Vətən qarşısında misilsiz xidmətləri bir daha minnətdarlıq duyğuları ilə xatırlanıb.

Müasir tariximizin bütöv bir qərinəsi Ulu Öndərin adı ilə bağlıdır. O, bütün ömrünü canından çox sevdiyi Azərbaycanın inkişafına, doğma xalqının rifahına həsr edib. Heydər Əliyev həyatda olmasa da, bu gün mənən xalqı ilə birlikdədir. Onun zəngin irsi, əbədiyaşar ideyaları yollarımızı işıqlandırır.

Xalqımız Azərbaycanın bugünkü dinamik inkişafına, qüdrətli, dünyada sayılıb-seçilən, qalib ölkəyə çevrilməsinə görə özünü Heydər Əliyevə borclu sanır. Fəxri xiyabanda yaşanan izdiham da Azərbaycan xalqının öz böyük oğluna vəfa borcunun ifadəsi idi.

Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev, əslində, sosial-iqtisadi böhran keçirən Azərbaycanı 1970-1980-ci illərdə keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.

1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük Qayıdış idi və Ulu Öndər müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətlərdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.

Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib. Bütün il boyu insanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıdan, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınan böyük azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər. Ulu Öndərin müdrik siyasi kursunun nəticəsi olaraq tolerantlıq ənənələri, milli-mənəvi dəyərlər dirçəldilib, yeni məna və məzmun kəsb etməyə başlayıb. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyanın ən sürətlə və dinamik şəkildə inkişaf edən qabaqcıl ölkələrindən biridir. Bu gün Azərbaycan həm də ən tolerant və multikultral ölkədir. Təsadüfi deyildi ki, Fəxri xiyabanı ziyarət etməyə gələnlər arasında müxtəlif millətlərin və dini konfessiyaların çoxsaylı nümayəndələrini də görmək olurdu.

Fəxri xiyabandakı izdiham bir daha göstərdi ki, Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi qəlblərdə daim yaşayacaq.

***Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyan arasında yaxın günlərdə Brüsseldə görüş keçiriləcəyi haqda məlumatlar var. Bu barədə “Faynənşl Tayms” qəzeti də yazıb. Danışıqların Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə aparılacağı deyilir. Tərəflər arasında Brüsseldə görüşün keçirilməsinə səbəb həm Brüsselin, həm də Bakının verdiyi pozitiv bəyanatlardır və belə bir görüşün qısa zamanda baş tutacağını göstərir.***





## Platformalar, vasitəçilər, görüş yerləri dəyişir, amma...

# Sülhün quyruğundakı İrəvan

Bundan əvvəl Aİ Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Brüsseldə baş tutan Azərbaycan-Ermənistan görüşləri uğurlu və müsbət nəticələr ilə yadda qalıb. Prinsip etibarilə Prezident İlham Əliyevin də Brüssel formatı ilə bağlı yanaşması müsbətdir. Yəni rəsmi Bakının format ilə bağlı heç bir problemi yoxdur. Lakin bu da bir həqiqətdir ki, Brüssel formatını məntiqi sonluqla başa çatmasını istəməyən Avropa İttifaqının daxilindəki məkrli qüvvələr var. Bu ölkələrin başında Fransa gəlir. Məhz Parisin bu formata müdaxilə etməsi və təşəbbüsü ələ almaq cəhdləri Azərbaycanın narazılığına səbəb olduğu üçün prosesin davamı bir müddət ertələnib. Qeyd edək ki, Brüssel görüşlərində konstruktiv qərarlar verilmişdi, amma Ermənistan bir çox hallarda bu prosesdən yayınmağı bacarıb. Görüşlərdə verilən qərarları ya icra etmək istəmir, ya da uzadır. Nəticədə verilən qərarlar kağız üzərində qalır. Bu hadisə bird aha təkrarlanmasın deyə, növbəti görüşdə alınacaq qərarların mütləq icrası Aİ tərəfindən təftiş edilməlidir.

Azərbaycan Prezidenti ilə Ermənistan Baş naziri arasında daha bir görüşün isə iyunun 1-də Moldovanın paytaxtı Kişinyovda baş tutacağı deyilir. Bu barədə məlumatı yenə “Faynənşl Tayms” üç mənbəsinə istinadən yayıb. Qəzetin iddiasına görə, Avropa Siyasi Birliyi sammiti çərçivəsində keçiriləcək görüşdə Azərbaycan, Ermənistan liderləri ilə yanaşı Avropa İttfaqı Şurasının rəhbəri Şarl Mişelin də iştirakı nəzərdə tutulub. Görüşə ayrı-ayrılıqda Almaniya kansleri Olaf Şolts və Fransa Prezidenti Makronun da qoşulacağı barədə məlumatlar dolaşır.

Qəzet danışıqlar zamanı Azərbaycanın Laçında qurduğu sərhəd-keçid məntəqəsi, eləcə də sərhədlərin demarkasiyası, əsirlərin mübadiləsi və digər mövzuların müzakirə ediləcəyini bildirib. Ermənistan Parlamentinin spikeri Alen Simonyan Türkiyəyə səfərində İrəvanın Azərbaycanla sülhə hazır olduğunu, amma bunun Türkiyənin iştirakı olmadan mümkün olmayacağını söyləyib. O, həmçinin Azərbaycanla Türkiyə arasında gediş-gəlişin Ermənistan ərazisindən həyata keçirilməsində problem olmadığını bildirib.

Qeyd edək ki, Ermənistan rəsmiləri postmüharibə dönəmində dəfələrlə Azərbaycanla münasibətlərin normallaşma prosesinin həyata keçirilməsilə əlaqədar müxtəlif açıqlamalar səsləndirir və özlərini sülhəmeyilli, “mələk” qismində təqdim edirlər. Təəssüf ki, Ermənistan əksər hallarda verdiyi vədləri yerinə yetirmir. Əvəzində müxtəlif təxribatlar törədərək sülhə gedən yolda manеələr yaradırlar. Simoyanın Türkiyə səfəri zamanı verdiyi açıqlamalar da təzadları ilə seçilir. Amma Ermənistanın danışıqlar prosesindəki ritotikasında nisbətən yumuşalma görürük. Avropa İttifaqının mülkü müşahidə missiyasının Azərbaycan və Ermənistan sərhədlərinə gəlməsindən sonra onların hərəkətlərində zora meyillilik hiss olunurdu. Bir müddət keçəndən sonra isə dəyişiklik baş verdi, ermənilər əvvəlki hallarına qayıtdılar.

Ermənistanın son zamanlarda atdığı addımlarda ümidsizlik hiss olunur, siyasi klularda gedən söhbətlərdə, siyasətçilərinin açıqlamalarında Azərbaycana yaltaqlıq notları hiss olunmaqdadır. Əsasən İrəvan anlayıb ki, Azərbaycan regionda söz sahibidir, istənilən bir qüvvəni prosesə cəlb etsələr uduzan tərəf özləri olacaq. Dünyanın iri dövlətlərinə gəldikdə isə, onlar Ermənistana görə Azərbaycanla münasibətlərini gərginləşdirmək istəmirlər, əksinə, Bakını regionda əsas tərəfdaş olaraq qəbul edirlər. İran da son zamanlar Ermənistanı əvvəlkitək dəstəkləyə bilmir. Yəni Ermənistanın son zamanlar həyata keçirmək istədiyi heç bir plan özünü doğrultmur. Təklənir və Azərbaycanla münasibətlərini normallaşdırmaqdan başqa çıxış yolunun qalmadığı açıq şəkildə görür.

Azərbaycanın strateji müttəfiqi Türkiyənin də regionda, ümumiyyətlə qlobal məkanda söz sahibi olması Ermənistanı daha çətin vəziyyətə salır. Bu baxımdan Simonyanın açıqlamalarında həqiqət olduğu ortadadır.

“Artıq Qarabağda şanlı Azərbaycan bayrağı dalğalanır, amma bu Qərbin xoşuna gəlmir”. Bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib. O bildirib ki, Türkiyə istehsalı olan PUA-ların Qarabağdakı fəaliyyətinin pisləməsi də bununla bağlıdır: “Halbuki bizim texnikalarımızın Ukraynada gördüyü işləri tərifləyirdilər”.

Türkiyənin XİN başçısı deyib ki, Türkiyə hər bir məsələdə əvvəlcə öz mənfəətlərini nəzərə alır: “Qərbin dedikləri ilə oturub-durmuruq. Rusiya ilə əlaqəni kəsməyin, bu dövlətə sanksiya tətbiq etməyin bizə faydası yoxdur, əksinə ziyanı var”.

Erməni politoloq Artur Xaçikyan Ermənistan hökumətinin xarici siyasətində qərbyönlü doktrinanı saxladığını deyib. O bildirib ki, əgər Ermənistan Qərbdən hansısa üstünlük alsaydı, bu mövqeni müzakirə etmək olardı. Lakin hökumətin başçısı deyir ki, Qərb bizə zəmanət vermir. Rusiya ilə münasibətlərimizin dağılmasından sonra biz fəlakətə və tam məhvə yaxınlaşmışıq. Xaçikyan Ermənsitanda olan avropalı müşahidəçilərin ölkəyə heç nə qazandırmadığını deyib: “Onlar hər şeyi məhv ediblər. Həm Rusiya ilə, həm Qərblə, həm Türkiyə ilə münasibətləri yox etdilər. Ermənistandan Türkiyəyə humanitar yardım, dostluq haqqında sözlər hakimiyyətdə ekstaz yaratsa da, onlar bunu da uğursuzluğa düçar etdilər”.

Bu arada ABŞ Dövlət Departamenti Türkiyənin Ermənistan aviaşirkətləri üçün hava məkanını bağlayan hərəkətlərindən narahat olduğunu bildirib. Bu, Vaşinqtonun ümumilikdə uğurlu hesab etdiyi ABŞ-da Ermənistan-Azərbaycan danışıqları fonunda baş verib. Ankara öz hərəkətlərini 1915-ci il erməni soyqırımında günahkar olan Türkiyə rəsmilərinin məhv edildiyi “Nemesis” əməliyyatı iştirakçılarına abidə açan “İrəvanın təxribatına” cavab adlandırır. Ermənistan hakimiyyətinin baş verənlərə reaksiyası kifayət qədər uğursuz olub. Baş nazir Nikol Paşinyan Türkiyənin hava məkanını bağlamasını başqasının deyil, Ermənistanın özü üçün problem adlandırıb.

Ermənistan Parlamentində hökumət saatında keçirilən iclasında deputatların sualını cavablandıran Nikol Paşinyan deyib: Əgər Türkiyə ilə yollar bağlıdırsa, bu, Ermənistanın özünün problemidir, bağlayanların yox. O qeyd edib ki, Ermənistan artıq oxşar vəziyyətlə üzləşib - vaxtilə İrəvanda Qaregin Nejdenin abidəsinin ucaldılması ilə bağlı problemlər yaranıb. Paşinyanın sözlərinə görə, Nemesis əməliyyatının şərəfinə memorialın açılması ideyası iki il əvvəl müzakirə olunub. Əgər bugünkü problemləri gözləyən hakimiyyət abidəni açmaqdan imtina etsəydi, milli ideyalara xəyanətdə ittihamlar alardı. Paşinyan vurğulayıb ki, Ermənistan demək olar ki, həmişə iqtisadi maraqlardan çox emosiyaları rəhbər tutur. “Ermənilər emosional xalqdır. Dövlət xalqı olmağın vaxtı çatıb”, - deyən baş nazir qeyd edib ki, bu, Ermənistanın dövlətçiliyinin asılı olduğu çox çətin, lakin zəruri prosesdir.

Bu zəruri rasionalizm Nikol Paşinyanın növbəti səs-küylü bəyanatını formalaşdırdı. Onun sözlərinə görə, Ermənistan açıq şəkildə bildirməlidir ki, onun qonşu ölkələrə qarşı heç bir ərazi iddiası yoxdur və olmayacaq. “Bu, bizə öz dövlətçiliyimizə sahib olmaq şansı verəcək yeganə prinsipdir. Əks halda, hər dörd tərəfdən dövlətimizi məhv etməyə yönəlmiş hərəkətlər alacağıq”, - Paşinyan bildirib.

Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı da buna uyğun səslənib. Şuşa şəhərində olarkən bildirib ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımaqla bununla da Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyır: “Ermənistanın özünün bu barədə Qərbdəki bəzi dostlarından daha açıq danışması vacibdir”.

Bu gün Qarabağda bütövlükdə baş verənlər deyilənləri təsdiqləyir. Ermənistanın baş naziri deputatlardan birinin Qarabağın ermənilər tərəfindən tərk edilmiş bəzi kəndlərində azərbaycanlılar tərəfindən məskunlaşdırıldığı barədə məlumatı ilə razılaşıb. Baş nazir qeyd edib ki, əslində, 2020-ci ildə üç ölkənin - Azərbaycan, Ermənistan və Rusiyanın dövlət başçıları tərəfindən imzalanmış və qaçqınların öz evlərinə qayıtmaq hüquqları ilə bağlı üçtərəfli bəyanatın bəndlərindən biri məhz bu yolla yerinə yetirilir.

Nikol Paşinyan təsdiqləyib ki, ABŞ-da mayın 5-də Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında başa çatan danışıqlarda “çox konkret sənəd” müzakirə olunub. O, təfərrüatları açıqlamasa da, parlamentin vitse-spikeri, Türkiyə ilə danışıqlar üzrə xüsusi nümayəndə Ruben Rubenyanın danışıqlara qoşulduğunu təsdiqləyib.

Türkiyənin bağladığı hava məkanı mövzusuna qayıdan Nikol Paşinyan bu hekayənin necə bitə biləcəyi sualına cavab verməyib. O, bütövlükdə ölkənin təhlükəsizliyindən danışaraq bəyan edib ki, Ermənistanın təhlükəsizliyini kimin təmin etmək iqtidarında olması məsələsini gündəmə gətirmək mümkün deyil. Baş nazirin sözlərindən belə çıxır ki, bu, Ermənistanın özünün vəzifəsidir: “Sülhə nail olmaq mümkündür. Bunun üçün bizim siyasi iradəmiz var. Məsələ ondan ibarətdir ki, biz nə dərəcədə dünyanın Ermənistan və onun xalqı üçün məqbul sayılan parametrlərini formalaşdıra biləcəyik”.

Bu arada Ermənistanın Mülki Aviasiya Komitəsi hələ də Türkiyədən hava məkanının bağlanması ilə bağlı rəsmi bildiriş almayıb. Bu qurumun rəhbərinin köməkçisi Lilit Ağabekyanın sözlərinə görə, Türkiyə hava məkanı vasitəsilə Avropaya uçuşlar ləğv edilib, lakin Türkiyəyə birbaşa uçuşlar qadağan edilməyib. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu vəziyyəti çox sadə izah edib: “Bu, İrəvanda türk vətəndaşlarının qatillərinə abidənin açılışına cavabdır”.

Qarşıda növbəti görüşlər, Ermənistan-Azərbaycan danışıqlarının növbəti raundlarının keçiriləcəyi gözlənilir. Brüsseldə, sonra Moldovada, daha sonar Moskvada və s. və ilaxır. Nəticədə, görüşlərin sayı artır, sülh isə heç üvüqdə də görünmür. Amma çıxış yolu var və bunu Azərbaycan Prezidenti Şuşada çıxışı zamanı açıq və konkret şəkildə bildirdi. Ermənistan Azərbaycanla heç bir vasitəçi olmadan problem həll edə bilər. İkitərəfli farmatın alternative yoxdur, vasitəçilər çoxaldıqca maraqlar da, fikirlər də, məsləhət-nəsihətlərin də sayı artır. Ermənistan özündə cəsarət tapmalı və birbaşa danışıqlarda Azərbaycanın təklif etdiyi prinsiplər əsasında sülh müqaviləsini imzalamalıdır. Əks təqdirdə Ermənistana lazım olmayan sülh bizə də lazım deyil.

**V.VƏLİYEV**

RAKURS



# Tarixi Şuşa Bəyannaməsi – İki güclü Liderin qardaşlıq birliyi!

***Türkiyə və Azərbaycanı rəsmi olaraq müttəfiq edən Şuşa Bəyannaməsi burada, Şuşada imzalanmışdır. Bu, tarixi hadisə idi.Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında deyib. «Buna baxmayaraq, Azərbaycanla Türkiyə arasında münasibətlər de-fakto müttəfiq münasibətləri idi və biz bunu xüsusi olaraq son iyirmi ildə nümayiş etdirmişdik», - deyə dövlətimizin başçısı vurğulayıb. «Prezident Ərdoğanın Türkiyəyə rəhbərlik etdiyi son iyirmi ildə bizim münasibətlərimiz mənim onunla birgə səylərimiz nəticəsində təkcə qardaş xalqlar arasında deyil, eyni zamanda, müttəfiqlər arasında olan münasibətlərə çevrilmişdir»,-deyən dövlət başçısı onu da vurğulamışdır ki, biz bunu dəfələrlə nümayiş etdirmişdik. Buna görə, əlbəttə ki, bu, regional inkişafın önəmli amilidir.***

## *PREZİDENT İLHAM ƏLİYEV: "Şuşa Bəyannaməsinin imzalanması tarixi hadisə idi"*

### TÜRKİYƏ İLƏ AZƏRBAYCAN ARASINDA MÜNASİBƏTLƏRİN QARDAŞLIQ XARAKTERİNİ HEÇ NƏ DƏYİŞMƏYƏCƏK

Prezident İlham Əliyev mayın 3-də Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında söyləyib ki, Türkiyə və Azərbaycan arasında münasibətlərin qardaşlıq xarakterini heç nə dəyişməyəcək. Dövlətimizin başçısı onu da vurğulayıb ki, Azərbaycanla Türkiyə nəinki təkcə bu müttəfiqliyin formatını qoruyub saxlayacaq, hətta onu gücləndirəcəkdir: «Çünki yeni geosiyasi reallıqda bu, artıq regional sabitliyin və təhlükəsizliyin mühüm amilinə çevrilib. İstər bu hərbi komponent, enerji, kommunikasiyalar, istərsə də ticarət və sair sahələr olsun».

### ŞUŞA BƏYANNAMƏSİ AZƏRBAYCAN–TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN ƏN YÜKSƏK ZİRVƏDƏ OLDUĞUNU GÖSTƏRƏN MÜHÜM SƏNƏDDİR

15 iyun, 2021-ci il - Türkiyə-Azərbaycan, "Bir millət, iki dövlət"i rəsmiləşdirən, ən əsası isə, tariximizdə ilk dəfə olaraq iki güclü liderlərin - Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin işğaldan azad olunmuş Qarabağımızın baş tacı olan Şuşada Müttəfiqlik haqqında Bəyannamə imzalanmasındın iki il ötür. Bu real faktordur ki, tarixi sənədlərin imzalandığı tarix və məkan hər zaman böyük əhəmiyyət kəsb edir. Çünki illər sonra gələcək nəsillər bu tarixi və məkanı tarix kitablarından oxuyarkən məsələnin mahiyyətini və əhəmiyyətini daha dərindən dərk edirlər. Bu mənada Şuşa Bəyannaməsinin siyasi və tarixi əhəmiyyətini izah edən məsələ sənədin imzalanma tarixi, yəni 15 iyun-Milli Qurtuluş Günüdürsə, ikincisi onun Azərbaycanın mədəniyyət paytaxtı Şuşada imzalanmasıdır. Əgər 29 il öncə 15 iyun tarixində Azərbaycanda vətəndaş müharibəsinin qarşısını ümummilli lider Heydər Əliyev aldısa, illər sonra Qars müqaviləsinin imzalanmasından iki yüz il sonra eyni gündə Azərbaycanın torpaqlarını düşmən tapdağından azad edən Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa Bəyannaməsini imzaladı. Bəyannamənin əhəmiyyəti ilə bağlı mətbuata bəyanatında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qeyd edib ki, "Türkiyə ilə Azərbaycan arasındakı bu bəyannamə bir sıra məsələləri əhatə edir. Gələcəklə bağlı addımları atarkən, artıq təkcə iki ölkəni deyil, bölgəni əhatə edən bir qətiyyətin bu sənəddə ifadə olunduğunu görürük". Bu qətiyyətin və birliyin təcəssümünü elə bəyannamənin mətni ilə tanış olarkən aydın görmək mümkündür: "Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, birgə məsləhətləşmələr aparılması, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirilməsi, BMT Nizamnaməsinə uyğun olaraq bir-birinə lazımi yardım göstərməsi, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur". Dövlət başçısı bildirib ki, Bir il əvvəl – 2021-ci il iyunun 15-də "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması ilə dost, qardaş və strateji tərəfdaş olan ölkələrimiz arasında əlaqələr keyfiyyətcə yeni mərhələyə yüksəlmişdir. Bu baxımdan da iki il bundan əvvəl imzalanan Şuşa Bəyannaməsinin müstəsna siyasi, iqtisadi, hərbi, elmi, mənəvi və tarixi əhəmiyyətini xüsusi olaraq qeyd etmək lazımdır. İlk növbədə bu sənəd Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları ilə xarakterizə olunan Azərbaycan-Türkiyə münasibətlərini daha da gücləndirərək yeni bir mərhələnin əsasını qoydu. Digər tərəfdən Ermənistanda revanşizmin və Qars müqaviləsinin ləğvi barədə iddiaların səsləndirildiyi, bəzi dövlətlərin regionda yenidən qarışıqlıq yaratmaq istədikləri bir zamanda belə bir sənədin imzalanması xüsusi rəmzi məna daşıdı. Məlumdur ki, Qars müqaviləsinin ləğv edilməsi ilə bağlı ayrı-ayrı vaxtlarda həm ermənilər, həm də onlara havadarlıq edən qüvvələr fikirlər səsləndirmiş və bunun üçün cəhdlər göstəriblər. Lakin Şuşada imzalanan Bəyannamə bu məsələni tarixin arxivinə göndərdi.

### HƏR İKİ LİDERİN ŞUŞA BƏYANNAMƏSİNƏ İSTİNAD ETMƏLƏRİ BİRLİK, QARDAŞLIĞIN TƏSDİQİDİR

Prezident İlham Əliyevin dediyi kimi: "Birgə Bəyannamə - Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır". Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın fəaliyyəti, həyata keçirdikləri siyasət iki qardaş dövlət üçün deyil, həm də Türk dünyası, region və dünya üçün tarixi hadisədir. 15 iyun Azərbaycan tarixində ikinci dəfə xüsusi bir mahiyyət daşıyan günə çevrildi. Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsi ilə Şərqdən Qərbə hər kəsin istifadə edə biləcəyi yeni bir ortaq iqtisadi dəhliz açılacaqdır. Bu layihə nəinki bölgə, region üçün, həm də dünya üçün vacib və mühüm əhəmiyyət daşıyır. Şuşa Bəyannaməsi Cənub-Şərqi Avropada və Qafqazda iqtisadi artımın güclənməsi, infrastrukturun inkişafı və regional təhlükəsizliyin qorunması üçün çox vacib vasitədir. Həmçinin, istər ötən il Bakıda keçirilən "TEKNOFEST-Azərbaycan", istərsə də "TEKNOFEST-Türkiyə»də keçirilən möhtəşəm tədbir, hər iki liderin «Şuşa Bəyannaməsi"nə istinad etmələri, birlik, qardaşlıq mesajları vermələri bu fikirləri bir daha təsdiq edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk". Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi kimi: "Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür".

### ŞUŞA BƏYANNAMƏSİ BÜTÜN DÜNYANIN BARIŞMALI OLDUĞU TARİXİ GERÇƏKLİKDİR

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış Şuşa Bəyannaməsi bütün dünyanın barışmalı olduğu tarixi gerçəklikdir. Hər iki ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinə, eləcə də müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərinin qarşılıqlı şəkildə əlaqələndirilməsinə istiqamətlənən saziş Bakı və Ankaranın başçılığı altında yeni regional geosiyasi konfiqurasiyanın qurulmasının başlanğıcıdır. Bu, regionda 200 ilə yaxın davam edən geosiyasi konfiqurasiyaların dağıdılması və bundan sonra Azərbaycan-Türkiyə tandeminin rəhbərliyi altında davam edəcək yeni regional düzənin başlanğıcı deməkdir. Çünki bu gün Azərbaycanla Türkiyə arasındakı münasibətlərin dünyada analoqu yoxdur. İstər 44 günlük Vətən müharibəsində Türkiyənin Azərbaycana, Türkiyənin də çətin günlərdə Türkiyənin yanında olmaları, qətiyyətli siyasi və mənəvi dəstəyi bütün dünya bir daha Azərbaycan-Türkiyə qardaşlığının təntənəsinin nümayişi idi. Və müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi hər iki ölkə ilə yanaşı, ən əsası, region üçün yeni tarixi gerçəklik deməkdir.Dövlət başçımızın dediyi kimi: «Bu gün müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır. Bəyannamənin adı özözlüyündə hər şeyi deyir. Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək işbirliyimizin təminatıdır».Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın söylədiyi kimi: «Gələcəklə bağlı addımları atarkən, artıq təkcə iki ölkəni deyil, bölgəni əhatə edən bir qətiyyətin bu sənəddə ifadə olunduğunu görürük».Bir sözlə, Şuşa Bəyannaməsi bütün güclərin qəbul etməli olduğu tarixi gerçəklikdir. Dövlət başçımızın mayın 3-də Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında söylədiyi kimi: "Türkiyə ilə Azərbaycan arasında münasibətlərin qardaşlıq xarakterini heç nə dəyişməyəcək!".

***RƏFİQƏ HÜSEYNOVA***



# Ermənistanın ardıcıl olaraq uğradığı FİASKO

***Zəfərimizlə başa çatan 44 günlük savaşdan, baş nazir Nikol Paşinyanın imzaladığı kapitulyasiya aktından sonra üçtərəfli Bəyanatın şərtlərinə əməl etməyə tələsməməkdə Ermənistan tərəfinin məqsədi danışıqlar masasında nəyə isə nail olmaqdır. Amma göründüyü kimi, bütün danışıqlar Ermənistan üçün uğursuzluqla nəticələnir və ermənilər istədiklərinə nail ola bilmirlər, fiasko ilə üzləşməli olurlar. Azərbaycanın yaratdığı yeni reallıqları bütün dünyanın qəbul etmək məcburiyyətində olduğuna Ermənistan tərəfi hər dəfə şahid olur, amma görünür ermənilər hər dəfə uğradıqları uğursuzluqdan, fiaskodan dərs ala bilmirlər.***



Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin qurulması ilə son dərəcə aydın oldu ki, Qarabağ iqtisadi rayonu üzərində suverenliyin tam bərpası üçün Azərbaycanın qanuni fəaliyyətinə heç bir qüvvə mane ola bilməz. Əlbəttə, elə buna görə də Nikol Paşinyanın Praqada bir sıra yeni bəyanatlarla çıxış etməsi və sərhəd məsələləri ilə bağlı fikirləri başadüşüləndir. "Biz deyirik ki, 1975-ci ilin xəritələrinə görə bütün uzunluğu boyunca sərhəd xəttini tanımağa hazırıq", deyən Nikolun çarəsizliyi aydın şəkildə hiss olunur. Bəlkə də belə bir fikir söyləyən Paşinyan bu məsələni hansısa sövdələşmə predmetinə çevirməyə çalışır, lakin özü hamıdan yaxşı bilir ki, buna ümid etməyə dəyməz.

Vovayeviçin narahatlıq keçirdiyi, qorxu içərisində olduğu da diqqətdən yayınmır və Vaşinqton danışıqlarına görə Rusiyada cavab verməli olacağına görə keçirdiyi təlaş da aydın şəkildə duyulur. Vaşinqton danışıqları zamanı Azərbaycanın şərtləri ilə razılaşmadan əvvəl düşünmək üçün Ermənistan tərəfinin bir müddət vaxt qazanmaq istəyi də təsadüfi deyildi. Bu, ilk növbədə Rusiya qarşısında cavabdehlik məsələsinə görə idi. Çünki erməni baş nazir bilir ki, Moskvaya getdiyi zaman o bir sıra narahatedici suallara cavab verməli olacaq və Vaşinqton danışıqlarına görə cavabdehlik daşıyacaq. Bilir ki, Ermənistandakı daxili siyasi vəziyyətə bütün təsir rıçaqlarından Kreml hələ də tam istifadə etməyib və istifadə edəcəyi təqdirdə, başda elə onun özü, öz hakimiyyət komandası olmaqla, bütövlükdə erməni cəmiyyəti çox zərər görmüş olacaq.

Digər tərəfdən, Vaşinqton danışıqlarında vaxt qazanmaqla Paşinyan erməni cəmiyyətində elə təəssürat yaratmaq istəyir ki, guya o hələ nəyi isə qorumağa, erməni maraqlarını müdafiə etməyə çalışır. Bir növ yenə də daxili auditoriyaya hesablanan addım atmaq fikrində olduğu ortaya çıxır. O, Ermənistandakı vəziyyətin paradoksal olduğunu da nəzəri alır deyə, bir sıra qərarlar vermək lazım olduğunda vaxt qazanmağı, daxili auditoriyanın fikrini bilməyi, ona uyğun addım atmağı ən təhlükəsiz variant hesab edir. Bir sözlə, bu dəfə də kapitulyator kimi çıxış etməkdən qorxur. Yeri gəlmişkən, belə bir qorxu təkcə Nikola aid deyil və bütün siyasi qüvvələr, elə Ermənistan müxalifəti də bu qorxunu yaşayır.

Artıq erməni cəmiyyəti çox yaxşı başa düşür ki, Vaşinqton danışıqları da, Çexiyadakı danışıqlar da erməni diplomatiyasının uğursuzluğu, fiaskosu kimi qiymətləndirilir. Nikol Paşinyanın Praqada söylədiyi nitqi belə bunu deməyə əsas verir. "Aİ missiyası nəinki təhlükəsizlik zəmanəti vermir, həm də yeni çağırışlar yarada bilər", deyən erməni baş nazirinin bu sözlərindən iştirakçılar çaş-baş qaldılar və çox güman ki, bu sözlər Avropa Birliyi üçün də gözlənilməz sürpriz oldu. Əvvəla ona görə ki, missiyanın, avropalı müşahidəçilərin Ermənistanda peyda olmasını özü istəmişdi, hətta bunun üçün nə Azərbaycanın, nə də Rusiyanın razılığı alınmayıb. Digər tərəfdən də axı Ermənistanda peyda olan missiya, avropalı müşahidəçilər ermənilər üçün heç nə edə bilməzdi və bu məsələdə Nikolun ağız büzməsi mənasız görünür. Görünən odur ki, baş nazir Paşinyan özünün də, ölkəsinin də uğursuzluqlarını görür və söylədikləri bir növ, bu uğursuzluqların etirafıdır, amma yenə də öz xislətinə uyğun olaraq buna görə yenə də günahı başqasında axtarır.

Əslində, avropalı müşahidəçilər işğalçı ölkədə peyda olduqdan bu zamana qədər ermənilərin törətdiklərinə çox göz yumublar, halbuki Ermənistan tərəfinin dəfələrlə Azərbaycana qarşı təxribat törətməsinə, sərhəddə təxribatlar təşkil etməsinə, atəşkəs rejimini pozmasına ən azından münasibət bildirməli, buna qarşı olmalı idilər. Amma bunu müşahidə edən olmadı. Əksinə, avropalı müşahidəçilər elə müşahidə etməklə də kifayətləndilər. Bundan isə təxribat törədənlər bir az da ruhlandılar və təxribatların sayı durmadan artdı. Ona görə ki, susqunluqla bir növ, onların təxribatçı əməllərinə motivasiya verildi. Azərbaycanla Ermənistan arasında münasibətləri normallaşdırmaq üçün əlverişli şərait yaratmalı olan avropalı müşahidəçilər erməni təxribatlarına göz yummaqla işlərini bitmiş hesab etdilər. Bununla belə Aİ-nin mülki kəşfiyyat missiyasının yerləşdirilməsi bütün razılaşmaları pozmaq və gizli təcavüzə yol vermək üçün bəhanə ola bilməz və rəsmi Bakının İrəvanı öz öhdəliklərinə əməl etməyə çağırması təsadüfi deyil.

Belə çıxır ki, missiya faktorundan Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesinə, o cümlədən ikitərəfli əsasda həyata keçirilməli olan sərhədlərin delimitasiyası prosesinə xələl gətirmək üçün istifadə edilməməli olduğunu ermənilər başa düşə bilməyiblər, halbuki bu barədə rəsmi Bakı bəyan edib. Eyni zamanda o da bəyan edilib ki, missiyanın fəaliyyəti Azərbaycanın qanuni maraqları nəzərə alınmaqla həyata keçirilməli və bu missiyanın fəaliyyətinin həyata keçirilməsi qarşılıqlı etimadı sarsıtmamalıdır. Ola bilsin ki, bunu da avropalı müşahidəçilər nəzərdən qaçırıblar. Hər bir halda görünür ermənilər həmin missiya faktorundan istifadə edərək təxribatlara davam etmək niyyətində olublar və elə zənn ediblər ki, bu ilin yanvarında Aİ ölkələrinin xarici işlər nazirləri Ermənistana mülki monitorinq missiyası göndərdikdən sonra ağıllarına gələni edə biləcəklər. Ermənilər yanıldıqlarını dərk etmək, bundan nəticə çıxarmaq əvəzinə, baş nazirləri Praqada çıxış edərək, Aİ missiyasının təhlükəsizlik zəmanəti vermədiyini, eləcə də yeni çağırışlar yarada bildiyini utanmadan söyləyir. Əslində, Aİ missiyasının regionda olması heç bir şəkildə sülh gündəminin təşviqinə və Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasına kömək etmədi, əksinə, təhlükəsizlik zəmanəti yox, susqunluğu ilə İrəvan üçün bir cəzasızlıq görüntüsü, illüziyası yaratmış oldu. Erməni baş nazirinin timsalında ermənilərə də çaşdıran elə bu oldu və Paşinyanın Praqa səfəri də göstərdi ki, Ermənistan Cənubi Qafqazın regional gündəliyində olan avropalı tərəfdaşların, Çexiyanın özünün də hərtərəfli dəstəyinə ümid etməkdə yanılır. Gec də olsa Nikol anladı ki, nəyə isə ümid etməyə dəyməzmiş və məhz buna görə də o Çexiyanın baş naziri Petr Fiala ilə birgə mətbuat konfransında çıxış edərək beynəlxalq ictimaiyyəti "Azərbaycanın Laçın dəhlizində nəzarət-buraxılış məntəqəsi yaratmasına aydın və məqsədyönlü qiymət verməyə" çağırdı. Bir sözlə, Çüxiyanın deyil, beynəlxalq ictimaiyyətin dəstəyini istədi, çünki Praqada başı daşa dəymişdi.

"Çexiya Cənubi Qafqazda sülh təşəbbüslərini dəstəkləyəcək" bəyanatı ilə Fiala Paşinyanın çağırışına çox səthi bir reaksiya verməklə kifayətləndi. O, 2022-ci ilin oktyabr ayında qəbul edilmiş Praqa Bəyannaməsinə uyğun olaraq, Ermənistan və Azərbaycanın bir-birinin ərazi bütövlüyünü qarşılıqlı olaraq tanımasının vacibliyini də dilə gətirdi. Deməli, Çexiyanın baş naziri bununla Paşinyana ehyam vurmuş oldu ki, Ermənistan da Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır və ermənilər burada hansısa güzəştə, yaxud dəstəyə ümid edə bilməzlər. Çexiya və Aİ-nin niyə Azərbaycana qarşı sanksiyalar tətbiq etməməsi ilə bağlı çexiyalı jurnalistin sualına da cavablandıran Fiala açıq şəkildə bildirdi ki, Azərbaycanın Qarabağda və Ermənistanla sərhəddə hərəkətlərinə ünvanlanıla bilən cavab "birtərəfli qiymətləndirmə" olar. "Əgər mən birtərəfli qaydada atəşkəsi kimin pozduğunu qiymətləndirsəm, bu, vəziyyəti yaxşılaşdırmayacaq. Çexiya və Avropa İttifaqının ümumi məqsədi regionda sabitliyə nail olmaq və uzunmüddətli sülhü təmin etməkdir. Biz bu istiqamətdə konkret addımlar atmışıq və ekspertlərimiz Aİ-nin monitorinq missiyasında iştirak edirlər", deyən Fiala uzunmüddətli sülhə nail olmaq üçün hər iki tərəfdən xoş niyyət tələb olunduğuna diqqəti çatdırdı. Bu isə o deməkdir ki, baş nazir Petr Fiala ermənilərin iddialarını və ittihamlarını hesaba da almır və atəşkəsin ermənilər tərəfindən pozulmasına daha çox inanır. Çüxialı jurnalistin sualına Fiala öz cavabı ilə bir növ, Ermənistana ciddi mesajlar verdi və hələ araşdırmaların aparılacağını da xatırlatdı. Xatırlatdı ki, hansısa böhtana, hansısa şər kampaniyasına ümid etməkdə yanılırlar.

Çexiyanın baş naziri Petr Fiala öz mövqeyi ilə də, söylədikləri ilə də Nikol Paşinyana bir növ yerini göstərdi. Laçın-Xankəndi yolunda quraşdırılan sərhəd-keçid məntəqəsi ilə bağlı erməni baş nazirinin Azərbaycana qarşı çıxmaq çağırışı da rədd edildi. Bir sözlə, Nikol Paşinyana Avropanın tən ortasında, Çexiyanın paytaxtı Praqada həddi bildirildi. Vaşinqton danışıqlarında olduğu kimi, Praqada da erməni diplomatiyası fiaskoya uğradı. Güman edirik ki, işğalçı ölkənin diplomatiyası ardıcıl olaraq uğradığı fiaskodan sonra doğru nəticə çıxarmış olar, əks halda, uğursuzluq Ermənistan üçün ənənə halını almış olacaq.

***İnam Hacıyev***

# Gender bərabər(siz)liyi: Kimdir müqəssir?





***Bütün dövrlərin ən aktual məsələlərindəndir gender problemidir. Qadın-kişi münasibətləri indiyədək müxtəlif kontekslərdə, müxtəlif quruluşlarda və müxtəlif dövrlərdə nəzərdən keçirilib. Qadınla kişinin bərabər hüquqları, istər sosial, istər cinsi, istər də mənəvi aspektlərdə müzakirəyə açıq məsələdir. Cinslərin qarşılıqlı münasibətləri ən çox müzakirə olunan, heç vaxt nəticəyə varılmayan mübahisəli məsələlərdəndir.***

### Vardır, yoxsa yoxdur?

"Qadın-kişi bərabərsizliyi" anlayışı XX əsrin 80-ci illərinin əvvəllərində "gender" termini ilə bərabər meydana çıxdı. Amma qədim tariximizdə qadının cəmiyyətdə və ailədə böyük rolu və mövqeyi olub. Azərbaycan qadını cəmiyyətdə dövlət başçısı, sərkərdə, diplomat kimi müxtəlif postlarda təmsil olunub, həmçinin ailədə kişi ilə bərabər hüquqlara malik olub.

Ekspertlər hesab edir ki, Azərbaycanda cins bərabərsizliyinin qabarıq şəkildə ortaya çıxması islam dininin hakim mövqeyə yüksəlməsindən sonra daha çox müşahidə olunub. Şəriət hökmlərində kişilərin qadınlar üzərində sərhədsiz hakimiyyətinin daha sərt şəkildə təsbit olunması cəmiyyətdə gender bərabərsizliyinin güclənməsinə səbəb olub. Doğrudur, hər nə qədər ilahiyyatçı alimlər bunun əksini söyləsə də islam ölkələrində tamamilə başqa vəziyyətlər müşahidə edilir. Bu dövrdə, bu əsrdə boşanmaq istədiyinə görə daşlanaraq öldürülən, saçı göründü deyə edam edilən qadınlar da var.

Qeyd edək ki, 1918-ci ildə Şərqdə yaradılan ilk respublika - Azərbaycan Demokratik Respublikası tarixdə qadınlara seçki hüququ və s. hüquqlar verilən ilk ölkələrdən sayılır. Sovetlər Birliyinin tərkibində olduğumuz zamanlarda isə qadınların cəmiyyətdə, ailədə, dövlət sistemində rolu daha sürətlə artdı və gender bərabərliyi həm hüquqi, həm də faktiki olaraq təmin olundu.

Məlumat üçün qeyd edək ki, Azərbaycanda qadın hüquqları və gender bərabərliyinə dair 142 sənəd imzalanıb. Lakin real həyatda qadın hüquqlarının pozulması, məişət zorakılığı, qadın alveri və cinsi istismar hallarının sayı artır. Elə bu günlərdə həyat yoldaşı tərəfindən qətl edilən həkim Türkan Gündüz hadisəsini xatırlamaq kifayətdir.

### Qadının ictimai-siyasi mühitdə çəkisi

Qadına seçki hüququnu bu gün ən inkişaf etmiş ölkələr belə Azərbaycandan sonra verə bilib. Seçkilərdə iştirak hüququnun rəsmi olaraq təmin olunması XX əsrin başlanğıcına təsadüf edir. Finlandiya və Norveçdə 1906-1907-ci ildə, Danimarkada 1915-ci ildə, Almaniya, İsveç və Böyük Britaniyada 1918-ci, ABŞ-da 1920-ci ildə,





Fransada 1944-cü, İtaliyada 1945-ci, İsveçrədə 1971-ci ildə qadınlar səsvermə hüququ qazanıblar.

2023-cü ilin əvvəlinə ölkə əhalisinin ümumi sayının 50,2 faizini qadınlar təşkil edib.

Ölkənin ümumi təhsil müəssisələrində müəllimlərin 81,9 faizi, orta ixtisas təhsil müəssisələrində 81,3 faizi, ali təhsil müəssisələrində 57,4 faizi, həkimlərin isə üçdən ikisi qadınlardır. Ümumi təhsil müəssisələrində təhsilalanların 46,6 faizini, orta ixtisas təhsili müəssisələri tələbələrinin 61,9 faizini, ali təhsil müəssisələri tələbələrinin isə yarısını qızlar təşkil edir.

Qadınların elmin inkişafında da müstəsna rolu vardır. Elmi işçilərin 59,2 faizini qadınlar təşkil edir. Son 10 ildə onlardan elmlər doktoru elmi dərəcəsi olanların sayı 2,2 dəfə, fəlsəfə doktoru elmi dərəcəsi olanların sayı isə 2,1 dəfə artıb. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərindən 7-si, müxbir üzvlərindən isə 9-u qadındır.

Azərbaycan qadınları məşğul əhalinin ümumi sayındakı çəkisi 48,3 faiz təşkil edir. Dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi 28,0 faiz, fərdi sahibkarlar arasında isə 22,0 faizdir. 1990-cı ildə bütün deputatların 4,3 faizini, 2000-ci ildə 10,7 faizini qadınlar təşkil edirdisə, bu gün ölkədə qadın deputatların xüsusi çəkisi 18,6 faizə çatıb.

Sürücülük vəsiqəsi alanların ümumi sayında qadınların xüsusi çəkisi 2008-ci ildə 4,6 faiz olduğu halda, 2022-ci ildə 11,8 faizədək artıb. Lakin ekspertlər hazırda Azərbaycan qadınların hakimiyyətin seçkili orqanlarında və ali icra strukturlarında təmsil olunma faizini hələ də qənaətbəxş hesab etmir.

### "Bizim qadınlar döyülməyi sevir"

Feminist qismin fikrincə, Azərbaycanda qadınlara münasibətdə yazılmamış qanunlar və formalaşmış stereotiplər çox zaman önə çıxır. Hesab edirlər ki, ailədə və cəmiyyətdə qadının yeri kişidən sonra gəlir. Süfrənin başı kişi üçündür, xörəyin yaxşı yeri ona saxlanır, kritik məqamlarda ən son sözü o deməlidir. Bəziləri bunu mental xüsusiyyətlərlə izah etməyə çalışır. Bəzən onlara haqq verirsən. Ən sadə misal, əri tərəfindən döyülən qadın bunu ətrafından gizlədir, döyülməyə razı olur, amma qorxur ki, bunu ətrafından kimsə bilər.

Feministlər hesab edir ki, əslində, gender bərabərliyi tarixin heç bir dönəmində heç vaxt olmayıb. Feminist Aynur Həsənzadənin dedikləri: "Bərabərlik ona deyirlər ki, eyni miqdarda göstərici olsun. Adicə misal, deputatlardan neçəsi qadın, neçəsi kişidir? Parlamentdə qadınlara 16-17 faizlik çəki veriləndə böyük iş hesab edilir. Axı bu ümumi payın 6-dan, 7-dən biridir, niyə bu qədər şişirdilir?".

Müsahibimiz deyir ki, əvvəl boşanmağa qorxan qadın indi boşanmaq istədiyini dilə gətirə bilir: "Bizim uğurumuz yalnız budur, o statistik rəqəmlər yox. Amma boşanmalarda da çox vaxt qadın əzilən tərəf olur. Ya öldürülür, uşaqları qalır zalım ər əlində, ya da əri evdən atır, baxmayaraq ki, evdə qadının və uşaqların qanuni haqqı var. Amma o "kişi" bunu əvvəlcədən fikirləşib axı, evi keçirib başqasının adına. Qadın nə təzminat ala bilir, nə də uşaqlara kəsilən aliment pulunu. Boşandıqdan sonra kişi yoxa çıxır, qadın da tək başına 2-3 uşağa baxmağa məcburdur".

### 136 pilləli siyahıda 94-cü yerdəyik

Dünya İqtisadi Forumu "Qlobal Gender Bərabərliyi" hesabatında 136 ölkəni resurs və imkanların kişi və qadın əhali arasında necə bölüşdürüldüyü üzrə dəyərləndirib. Hesabat dörd sahədə gender bərabərsizliyini ölçüb: iqtisadi iştirak və imkanlar, təhsil dərəcəsi, siyasi səlahiyyət, sağlamlıq və həyatdaqalma. Həmin siyahıya görə Cənubi Qafqaz ölkələri arasında lider Gürcüstandadır, o siyahının 86-cı pilləsindədir. Sonra Ermənistan (94) və Azərbaycan (99) gəlir. İran (130) və Pakistan (135) aşağı səviyyəli ölkələr sırasındadır.

MDB ölkələri arasında ən yüksək nəticə Qazaxıstana (32) məxsusdur. Daha sonra Moldova (52), Rusiya (61), Qırğızıstan (63), Ukrayna (64), Azərbaycan (99) gəlir.

Beləliklə, bir tərəf Azərbaycan qadınlarını cəmiyyətimizin tamhüquqlu üzvləri kimi ölkənin sosial, iqtisadi və ictimai-siyasi həyatında fəal iştirak etdiyini iddia edir, başqa bir tərəf isə əksini deyir. İndi siz deyin, Azərbaycanda gender bərabər(siz)liyi varmı?

***Lalə Mehralı***



## 100 illik yubileyə hədiyyə!

Vətənə, Dövlətə, Xalqa sədaqət
Ulu Öndər Heydər məhəbbətiydi.
Xalqın xoş günüyçün çəkdiyi zəhmət
Xalqa sevgisinin əmanətiydi.
Dünyaya tanıtdı Azərbaycanı
O, öz qüdrətiylə ad-san qazandı.
Dar günündə xalqın O, çıraqbanı
Vətəni qurtulmaq "Quran"a andı.
Allah da qorudu Onu bəladan
30 il Vətənə rəhbərlik etdi.
Qurtulduq əzabdan, hər cür xətadan
Bu xalqı İlhama vəsiyyət etdi.
100 illik Yubileyə gəlib qonaqlar
Möhtəşəm Bayramdır yer kürəsində.
Uca binalarda yanır çıraqlar
Ulu Öndər Heydər göy qübbəsində!

**Mürsəlova Ofelya Mürsəl qızı**
ADPU-nun pedaqogika kafedrasının sabiq baş müəllimi





# Sondan əvvələ: göydən üç alma düşdü...

*Həmişə göydən üç almanın düşməsinə uşaq nağıllarının sonunda rast gəlmişik. Hələ nağılların sonluğunun üç alma ilə bitdiyini biləndən sonra hər dəfə səbirsizliklə gözləmişik ki, nağıl söyləyənlər göydən üç almanı düşürsünlər və bizlər də öz payımızı ala bilək...*

Bu dəfə isə göydən üç alma uşaqlığımızın nağıllarının sonundan əvvəlinə gəlib. Belə ki, Pərvanə Rasimqızının "Göydən üç alma düşdü" adlı yeni broşür-kitabı nəşr olunub. Üç almanı elə əvvəldən uşaqlara hədiyyə edən kitab gözəl illüstrasiyası, dizaynı, nəfis tərtibatı ilə göz oxşayır. Elə uşaqlara da bu lazım deyilmi? Əlbəttə, onlar üçün lazım olan da budur, vacib olan da.

Elə söhbətin bu yerində bir haşiyə çıxmağı özümə borc bilirəm ki, son dövrlər uşaqlarımızı saatlarla kompüter qarşısında əyləşdirib, əllərinə smartfon telefonlar verib başını qatmağa çalışırıq. Onları bütün sosial şəbəkələrin baş qəhrəmanına çevirmişik. Uşaqların həm şirin-şəkər hərəkətlərini, həm də sözəbaxmayan, dərs oxumaq istəməyən hallarını çəkib sosial şəbəkələrdə nümayiş etdiririk. Bu isə heç də yaxşı hal deyil. Biz uşaqlarımızı internet aləmindən kənar tutmaq əvəzinə, onlarla bağlı videoları hazırlayıb bu şəbəkələrə yerləşdirməklə onların həyatı ilə oynayırıq. Kompüter və smartfon telefonlardan istifadə üçün saatlarla vaxt verməklə onların uşaqlığını əllərindən alırıq. Əslində vaxt ayırıb onlara nağıl oxumalıyıq, saatlarla təmiz havada gəzdirməliyik. Özümüzün oynadığımız oyunları onlara təlqin etməliyik. Lakin təəssüflər olsun ki, bunların heç birini etmirik. Çox halda uşağın səsi çıxmasın deyə telefonu əlinə verib sakitləşməsini istəyirik ki, işimizin arxasınca arxayın gedək. Nəticədə isə uşaqların nitqində qüsur yaranır, gözlərinin sağlamlığını itirir, beyni vaxtından əvvəl formalaşır. Telefonda baxdığı cizgi filmləri mentalitetimizə uyğun olmadığı üçün uşaqların aqressivləşməsi, bu aqressiyalar ilə böyüməsi, baxçada, məktəbdə hegemonluq etməsi, sinif yoldaşları ilə anlaşa bilməməsi ilə nəticələnir. Sonda nə baş verir? Biz onları xəstəxanalara, loqopetlərə, psixoloqlara aparmalı oluruq. Özümüz öz əlimizlə övladlarımızın sağlamlığını əlindən alıb, sonra da öz ayaqlarımızla xəstaxana və digər sağlamlıq mərkəzlərinə gedən yollarda sürünürük.

Bax, Pərvanə Rasimqızı bütün bu söhbətimizin əksinə olan bir ədəbiyyat qoyub ortaya. Uşaqları yersiz əyləncələrdən uzaq tutmaq, onları şəkillərlə əyləndirmək, nağıllarla böyütmək üçün gərəkli olan bir vəsait ərsəyə gətirib. Müasir dövrümüzdə ölkəmizdə uşaqlar üçün yazılan kitabların yox dərəcəsində olduğunu nəzərə alsaq, yeni nəşr çox təqdirəlayiqdir.

Broşür-kitabdakı 14 nağılın hər biri hadisələrin məzmun seçimi, cərəyanı, kuluminasiya nöqtəsinin marağı ilə diqqət çəkir. Böyüklərə sayğını, dost və rəfiqə ilə gözəl münasibətləri, paylaşmağı, həmrəyliyi, vətənpərvərliyi, heyvanlarla dostluğu, onları qorumağı aşılayan nağılların hər biri uşaqların xarakterinin, dünyagörüşünün formalaşmasında böyük əhəmiyyətə malikdir.

2-8 yaş uşaqlar üçün nəzərdə tutulan kitabı təbii ki, hərfləri tanımadıqları və yenicə öyrənməyə başladıqları üçün valideynlər, böyüklər oxumalıdırlar. Bax bu cəhətin özü daha təqdirəşəyandır. Çünki müəllif bununla uşaqları pis alışqanlıqdan xilas etməyə cəhd göstərir. Valideynlərə, böyüklərə hazırladığı kitabla demək istəyir ki, uşaqları onlar üçün əlverişli olmayan vərdişlərdən uzaqlaşdırın, onlara kitab, nağıl oxuyun. Onların sağlam böyüməsinin qeydinə qalın. Uşaqları aqressiv böyüməsinə səbəb olan bütün vasitələrdən qoruyun.

Müəllif kitabda özü haqqında məlumat verməsə də, bir qədər də onun barəsində söhbət açaraq demək istəyirəm ki, gənclik yollarında addımlamaqda olan Pərvanə Rasimqızı əmək fəaliyyətinə Təhsil İstitutunda (əvvəki Təhsil Problemləri İnstitutu) böyük elmi işçi kimi başlayıb, burada istedadlı uşaqlarla iş şöbəsində çalışıb. Hətta institutun "Elmi nəşrlər" jurnalinda bir neçə dəfə məqalələri də dərc olunub. Daha sonra isə ailə vəziyyəti ilə əlaqədar olaraq "Kiçik mələklər" tədris və inkişaf mərkəzində erkən inkişaf, həm də ibtidai sinif müəllimi kimi fəaliyyət göstərməyə başlayıb. Artıq beş ildir ki, uşaqlarla işlədiyinə görə, necə deyərlər, onların istək və arzularına yaxın olduğu və sağlamlıqlarının, düzgün böyüməllərinin qeydinə qaldığı üçün nağıllar yazmağa başlayıb. Sonda isə onu broşür şəklində dərc etdirib.

Müəlliflə söhbət zamanı bildirdi ki, müasir dövrdə uşaqların izlədiyi cizgi filmlərindən fərqli olaraq kitabdakı nağıllarda qorxunu və onun yaratdığı aqressiyanı aşılayan heç bir hal yoxdur. Əksinə uşaqların maraq dairəsinə yaxın, onların yaşına və düşüncə tərzinə uyğun nağıllar yer alıb və nağılların ssenarisinin hər biri üçün pedaqoq və psixoloqlardan məsləhət alınıb, onların rəyi üstün götürülüb.

Beləcə əlimizdə uşaqlarımıza böyük bir hədiyyə var. Kitabı vərəqlədikcə düşünürəm ki, uşaqların əlindən telefonu alıb əvəzinə bu kitabı- "Göydən üç alma düşdü"nü onlara hədiyyə edən müəllif özü bir ana kimi nə qədər xoşbəxtdir... Çünki uşaqlarımızın bu kompüter dünyasından xilasını düşünmək heç də hamının ağlına gələn məsələ deyil. Odur ki, müəllifi təbrik edir və uğurlar arzulayıram. Bir sirri də açıqlamaq istəyirəm ki, nağıllar kitabının ardı olacaq, hələ üstəlik müəllif hekayələrlə də gələcəkdə uşaqların görüşünə gələcəkdir.

Yeni kitabınız xeyirli olsun, Pərvanə xanım. Qoy hər kəs gələcəyimiz olan uşaqların sağlam təfəkkürlə böyüməsi üçün sizin kimi öz töhfəsini versin. Bizim buna çox ehtiyacımız var.

*Mətanət Məmmədova*



# Oxu(t)muram əl çəkin!

**Elçin Bayramlı**

***Məlum olduğu kimi, orta məktəb imtahanları bu il biabırçı nəticələrlə müşayiət olunub. Şagirdlərin çoxu orta bal belə yığa bilməyiblər. Mümkün 300 baldan 100 bal yığanların valideynləri sevinir.***

Halbuki, 300 baldan 100 bal yığmaq 5 ballıq qiymətləndirmə sistemi üzrə 2 deməkdir! Yəni, orta məktəbdə bildiyiniz 2 qiyməti. Hələ bunlar orta təhsilin seçilmişləri, savadlıları, özünə inananlarıdır. Konkret desək, orta təhsil sıradan çıxmışdır!

Ali məktəblərə qəbul imtahanlarında da hər il eyni vəziyyət olur. Hələ, onu da qeyd etmək lazımdır ki, son dövrlərdə imtahanlarda suallar xeyli asanlaşdırılıb. Buna baxmayaraq, 700 mümkün baldan 150-200 balla, yəni 5 ballıq sistem üzrə 1-2 qiymətlərlə ali məktəbə daxil olurlar. Hansı ki, Sovet dövründə 4 qiymətlə güclə qəbul olmaq olurdu.

İndi keçək bunun səbəblərinə. Niyə təhsildə getdikdə tənəzzül baş verir? Hər halda indi orta məktəbdə normal təhsil almaq üçün hər cür şərait var. Bəs müəllimlər niyə məktəblilərə normal təhsil verməkdə maraqlı deyillər? Çünki aşağı əməkhaqqı alan müəllim keyfiyyətli dərs keçməkdə maraqlı ola bilməz. Onun fikri evində olan çoxsaylı problemləri bu cüzi maaşla necə həll edəcəyidir. Ona görə də, dərsi başdansovdu yola verib evinə tələsir ki, bir az istirahət edib, axşam repetitorluqla 5-10 manat əlavə pul qazansın. Üstəlik sinifdə 30-40 şagird varsa hansı keyfiyyətli tədrisdən söhbət gedə bilər?

Bəs uşaqlar niyə məktəbdə təhsil almaqda maraqlı deyillər? Burda çoxsaylı səbəblər var. Kənd yerlərində uşaqlar təsərrüfat işlərində valideynlərinə kömək etməyə məcburdurlar. Əks halda dilənçi vəziyyətinə düşərlər. Ona görə də, tədris ilinin çox hissəsini məktəbə gəlmirlər, gələndə də, dərslik halları qalmır.

Şəhərlərdə uşaqlar vaxtlarını internetdə, mobil telefonlarda min oyundan çıxmaqda, televiziyanın qabağında keçirməkdə daha çox maraqlıdırlar. Valideynlərin çoxu uşaqlarına mütləq azadlıq verib.

Uşaq da əyləncəni qoyub dərsi niyə oxusun ki? Ağzında uşaq deyirsən. O nə bilir ki, bu gələcəkdə ona hansı problemlər yaradacaq? Axı hələ ki, hər şey müftə gəlir, atası bahalı telefon, kompüter alır, "məktəbi bitirən kimi sənə maşın alacam" deyə söz verir, anası seriala baxmaqdan vaxt tapıb ona həyatı başa salmır, yalnız uşağın az yemək yediyindən narahat olur.

Düzdür, son dövrlərdə təhsil sistemində aparılan eksperimentlər əks effekt verib və vəziyyət daha da pisləşib. Test sistemi uşaqları əzbərçiliyə öyrədib, kurrikulum sistemi isə özbaşınalığa şərait yaradıb. Dərsliklərin keyfiyyəti yaxşı deyil, imtahan suallarında anlaşılmazlıqlar var.

Lakin orta təhsil sisteminin iflasa uğramasının səbəblərini təkcə Elm və Təhsil Nazirliyində yox, həm də valideynlərin özlərində axtarmaq lazımdır. Hər halda, bu tam ölkədə orta təhsil pulsuzdur, dərsliklər pulsuz verilir, məktəblər zəruri ləvazimat və avadanlıqlarla təmin edilir.

O zaman valideyni ağıllı olan, özü isə təhsil almaq istəyən uşaq savadsız ola bilməz. Hər şey dərsliklərdə yazılıb, bilmədiyini isə müəllimdən soruşmaq olar. Hətta, internetdən istənilən məlumatı tapmaq olar. Lakin uşaqlar bundan maraqlı deyil. Valideynlər isə, uşaqlarının həqiqi təhsil almasında yox, hər hansı yolla ali məktəbə daxil olmasında görürlər. Yəni, vacib olan savad deyil, diplomdur.

Nə qədər ki, təfəkkürümüz məzmun yox forma üzərində qalacaq, o qədər də heç bir intellektual inkişafdan danışa bilməyəcəyik. Əgər bu yeni sistemlər daha pis effekt verirsə, onda zəhmət çəkib öz effektini uzun onilliklər boyu real nəticələrdə sübut etmiş köhnə sistemə qayıtsınlar. Ümumiyyətlə, təhsil sistemində eksperimentlərə son qoyulmalıdır.

# “Qərb Ermənistan ordusunu NATO sxemləri üzrə döyüşə hazırlayır”



*Rusiyalı politoloq: Azərbaycan güclü mövqedən çıxış edir və danışıqlarda sərt mövqe nümayiş etdirir. Həqiqət, güc və haqq onun tərəfindədir*

Xəbər verdiyimiz kimi, rəsmi Bakı Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında ötən həftə ABŞ-da keçirilən 4 günlük danışıqlara ilk konkret qiymət verib. Belə ki, Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov bu gün Riqada latviyalı həmkarı ilə danışıqların yekunlarına dair mətbuat konfransında ABŞ-da Ermənistanla aparılan danışıqların ümidləri doğrultmadığını bildirib. Bayramov onu da bildirib ki, Bakı Ermənistan tərəfini xoşməramlılıq nümayiş etdirməyə və bütün istiqamətlərdə münasibətlərin normallaşması üçün müzakirələrə daha çox səy göstərməyə çağırır.

Xatırladaq ki, mayın 1-dən 4-dək Amerikanın Arlinqton şəhərində keçirilən dördgünlük danışıqların yekunlarına əsasən, Azərbaycan və Ermənistan xarici işlər nazirlikləri eyni bəyanatlarla çıxış etmişdilər və həmin bəyanatlarda tərəflərin sülh sazişinin bəndləri haqda razılaşma əldə etdiyi bildirilmişdi. Lakin razılaşma əldə olunmayan məqamlar var.

Eyni zamanda Ermənistanın baş naziri Nikol Paşinyan mediaya müsahibəsində bildirib ki, Amerika danışıqlarının nəticələrinə görə Qarabağ məsələsi İrəvanla Bakı arasında yeganə fikir ayrılığı deyil, amma əsas məsələ olaraq qalır. O, xüsusilə, bunun Qarabağ ermənilərinin hüquqları ilə bağlı ifadələrə aid olduğunu bildirib.

Xatırladaq ki, Azərbaycan prezidenti İlham Əliyev iki ölkənin xarici işlər nazirləri arasında danışıqların növbəti mərhələsinin Rusiya ərazisində keçirilməli olduğunu bildirmişdi. O, həmçinin Azərbaycan və Ermənistan tərəfləri arasında birbaşa danışıqlar formatını müsbət qiymətləndirib və müsbət nəticələr gözlədiyini qeyd edib. Eyni zamanda, Azərbaycan lideri sülh sazişi ilə bağlı son şərhində Ermənistan tərəfinin yenidən Azərbaycana qarşı ərazi iddiaları irəli sürdüyünə diqqət çəkib və xəbərdarlıq edib ki, İrəvan Qarabağa iddialarından əl çəkməsə, sülh olmayacaq, kommunikasiya olmayacaq və Ermənistan yenidən təcrid olunacaq.

Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov “Moskva-Baku” portalına müsahibəsində baş verən hadisələr fonunda Ermənistan-Azərbaycan nizamlanmasındakı vəziyyəti dəyərləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.

**- Sergey Aleksandroviç, Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında Amerika danışıqlarının nəticələrini necə qiymətləndirirsiniz?**

- Amerika danışıqları nəticəsində heç bir irəliləyiş görmədik. Çünki heç bir irəliləyiş mövcud deyil. ABŞ dövlət katibi Blinken Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında Amerika danışıqları zamanı çox şey əldə edildiyini, sülh müqaviləsinin uzaqda olmadığını deyəndə, yalan danışır, bu, sadəcə, manipulyasiyadır. Bu, qeyri-müəyyənlikdən başqa bir şey deyil, eyni zamanda, qeyri-müəyyənlik təhlükəlidir.

Amerika danışıqları bir daha göstərdi ki, proses çıxılmaz vəziyyətdədir. Bunun təsdiqi isə Azərbaycan XİN rəhbərinin bəyanatıdır və Nikol Paşinyanın əsas danışıqlar probleminin Qarabağ olduğunu dilə gətirdiyi bəyanatdır. Bu danışıqların çıxılmaz nöqtəsi Qarabağdadır.




Azərbaycan Qarabağın qalan hissəsinin ona qaytarılmasını tələb edir. İrəvan, deyəsən, Qarabağı qaytarmağa hazırdır, lakin ona ən yüksək muxtariyyət verilməsini və beynəlxalq təşkilatların Qarabağ ermənilərı üçün muxtariyyətin təminatçısı olmasını tələb edir. Təbii ki, Azərbaycan heç bir muxtariyyət verməyəcək, çünki tarixən onun necə başa çatdığını- separatizmi və 30 illik Qarabağ münaqişəsini görüb. Azərbaycan Qarabağ ermənilərini digər Azərbaycan vətəndaşları ilə eyni hüquqlarla təmin etməyə hazırdır.

Bu gün ssenarilər üçün bir neçə variant var. Əsas odur ki, Azərbaycan Rusiya sülhməramlılarının Qarabağda yerləşdirilməsi ilə bağlı 5 illik mandat başa çatdıqdan sonra Qarabağın qalan bu hissəsini öz nəzarətinə qaytaracaq.

İkinci variant, Qərbi sıxışdırmağa cəhd edilə bilər. Düşünülür ki, amerikalılar və avropalılar Ermənistana Qarabağı “satmağı” təklif edə bilərlər. Yəni, təklif olna bilər ki, Qərb “tərəfdaşları” Ermənistana pul ödəsinlər ki, İrəvan Qarabağa istənilən ərazi iddialarından əl çəksin. Ermənistan bunun müqabilində külli miqdarda pul alır və tamamilə Rusiyadan uzaqlaşıb Qərbə doğru gedir. Ermənistan zəngin ölkə deyil, bu, İrəvan üçün faydalı olardı. Azərbaycan Qarabağı geri alır. Amma bunun müqabilində Bakıdan nə istəniləcəyi sual altındadır.

**- Aİ-nin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri arasında gözlənilən mümkün görüşlər ABŞ-ın apardığı eyni xəttin davamıdırmı?**

- Şübhəsiz ki. Ermənistan yalnız Qərbin vasitəçiliyini gücləndirməyə çalışır. Və biz bu artımı görürük. Amma yeni görüşü gözləmək- artıq Avropa platformasında (və biz bilirik ki, əslində bunlar eyni şeydir - Amerika və Avropa platformaları) heç nə gözləməyə dəyməz. Bu, sadəcə olaraq, informasiya və siyasi oyundur. Aİ burada Amerikanın peyki kimi çıxış edir. Qərbin Cənubi Qafqazda artan bütün bu manipulyasiyalarının əsas vəzifəsi Rusiyanı Ermənistan-Azərbaycan nizamlanmasından sıxışdırmaqdır.

**- Bununla belə, Qərb tərəflərdən birinin xeyrinə daha çox oynayır, yoxsa orda və burda manipulyasiya etməyə çalışır?**

- Ümumiyyətlə, Qərb əksəriyyətlə Ermənistanın tərəfindədir. Fransa müstəsna olaraq ermənipərəst ölkədir. Amma fakt budur ki, Azərbaycan güclü mövqedən çıxış edir və danışıqlarda sərt mövqe nümayiş etdirir. Həqiqət, güc və haqq onun tərəfindədir. Və bütün bunları nəzərə almaq lazımdır...

**- Ermənistanın baş naziri Moskvaya Qələbə paradına getdi, aydındır ki, həm Ermənistan-Azərbaycan nizamlanması ətrafındakı vəziyyət, həm də oradakı “Qərb faktoru” Putinlə Paşinyan arasında müzakirə olunub...**

- Ermənistanın baş naziri İrəvanı Rusiyanın dostu kimi göstərməyə çalışır. Əslində də, parada buna görə gedir. Amma faktiki olaraq Paşinyan hər vasitə ilə Rusiyanın danışıqlar imkanlarını əngəlləməyə çalışır.

Biz görürük ki, Fransa İrəvandakı səfirliyində hərbi nümayəndəlik açıb. Paris Ermənistanı tamamilə öz tərəfinə çəkməyi gözləyir. Bütün bunlar nə deməkdir? Fransa hərbi missiyası erməni hərbçilərini Azərbaycanla müharibəyə hazırlayacaq.

Rusiya hələ də üçtərəfli bəyanatların bütün bəndlərinin yerinə yetirilməsini vacib hesab edir və bunu əsas götürür. Qərb Ermənistanın köməyi ilə Moskvanı danışıqlar prosesindən çıxarmağa çalışır. Və təbii ki, Moskva, obyektiv olaraq Qərbin Cənubi Qafqaz yolunda necə işləməyə çalışmasından narahatdır.

**- Bu o deməkdirmi ki, Qərb missiyası hansısa yolla Rusiya sülhməramlılarını Qarabağdan çıxara bilər?**

- Yox, belə deyil, çünki Qərbin belə imkanı yoxdur. Ən əsası isə Azərbaycan buna qəti şəkildə qarşı olacaq. Və bu amil kifayətdir. Türkiyə də reaksiya verəcək. Qərb Qarabağa girməyə şad olardı, amma şansı yoxdur.

Aydındır ki, Azərbaycan Qarabağda Qərb sülhməramlılarına qarşıdır, lakin Qərb onları ora yerləşdirmək istəyir. Ermənistan artıq qərbli tərəfdaşlarını Azərbaycanla sərhəddəki Aİ missiyasını genişləndirməyə çağırır. Bu halda missiya daha təsirli olacaq. Həqiqətən də Azərbaycanın razılığı ilə öz sülhməramlılarını Qarabağda yerləşdirə bilməyən Fransa onları Ermənistan ərazisinə yerləşdirəcək. Mən praktiki olaraq əminəm ki, Qərb artıq Ermənistan hərbçilərini NATO sxemləri üzrə hazırlayır.

*Tərcümə- Elçin Bayramlı*

---



Mətanət Məmmədova

# Oxşar dodaqlar, oxşar burunlar... nəticə...

***Nəticə bundan ibarətdir ki, indi qadınların hamısı bir-birinə oxşayır. Nə üçün? Mən deyim, siz də dinləyin. Elə ki, burunların kiçildilməsi, dodaqların şişirdilməsi dəb halını aldı, eyni həkimə və kosmetoloqa müraciət edən qadınlar da bir-birinə bənzəməyə başladılar. Çünki bir həkimin, bir kosmetoloqun bacardığı iş onlarla qadının üzündə təzahür etdi.***

Burun əməliyyatını anlamaq olur haradasa. Bəzən elə burunlar olur ki, ya tibbi nöqteyi-nəzərdən, ya da görünüş baxımından əməliyyata ehtiyacı olur. Əslində bütün estetik əməliyyatlarla Allaha qarşı çıxırıq, bu, məlumdur. Lakin edirik də, bu da qarşısıalınmazdır. Belə olan halda sağlamlığa və ya gözəl görünməyə əngəl yaradan burunların əməliyyat olunması başadüşüləndir.

Bəs dodaqların şişirdilməsi necə, vacibdirmi? Bu, nəyi dəyişir, nəyə xidmət edir? Bax bu suallara illərdir ki, cavab axtarıram, lakin hələ də tapa bilmirəm. Küçədə, mağazada, marketdə bir də baxırsan ki, neçə qadın varsa, hamısı bir-birinin bənzəridir. Dodaqlar, necə deyərlər, üç metr qabaqda, burunlar yuxarıda- ox kimi.

Belə baxırsan, baxırsan, deyirsən, İlahi, insan da özünü bu günə salarmı? Bu boyda dodaqların nə mənası var. Axı Allah-təala məsləhət bilib bunu qaydasında-qanununda verib də... Amma nə fayda? Bunu anlayan, düşünən varmı? Elə bu səbəbdən də şişmə dodaqlar dəbə düşüb və əksər qadın düşünmədən-daşınmadan qaçır kosmetoloq yanına ki, mənim dodağımı şişirt. Bu iş üçün həm də qadınlarımız heç də həmişə həkim-kosmetoloqlara deyil, adi bir gözəllik salonunda bu işlə məşğul olanlara müraciət edirlər ki, nəticə adamı dəhşətə gətirir. Bir də baxırsan ki, qarşıdan bir qadın gəlir, ağız-dodağını heç cür yığıb-yığışdıra bilmir. Vallah, adamın yazığı gəlir. Bəzi halda utandıqları, insanlardan qüsurlarını gizlətməyə çalışdıqları da gözdən yayınmır. Amma, çox təəssüf ki, iş işdən keçmişdir.

Bəli, heç bir təhsili olmayan, sadəcə oradan-buradan necə gəldi öyrənib özünü kosmetoloq adlandıranlar qadınlarımızın başına bu oyunları gətirirlər.

Tək dodaqlar deyil, elə burunlar da var ki, üç dəfə təkrar əməliyyat olunmasına baxmayaraq hələ də normal burundan xeyli uzaqdadır. Bu cür burunları daşıyan qadınlarla qarşılaşanda isə onun əziyyətinə və çəkdiyi xərcə heyfisilənib işinin öhdəsindən gələ bilməyən həkimləri ittiham etməkdən başqa çarə qalmır.

Tək dodaq, burunmu? Xeyir. İndi artıq qalıcı olaraq qaşların formaya salınması və kirpiklərin uzadılması, saçların istənilən uzunluğa çatdırılması da qadınlarımız arasında dəbə çevrilib. Bax elə bütün bunlara görə də tez-tez bir-birinə oxşar qadınlarla qarşılaşmaq olur. Burunlar , dodaqlar, qaşlar, kirpiklər, saçları eyni olan qadınlarla...

Lakin hər bir qadın üçün özünəməxsusluqdan gözəl nə ola bilər? Özünə məxsus burun, dodaq quruluşu, özünə məxsus saçlar, qaşlar, kirpiklər... Qadınlarımız əsrlərlə bütün bunlarla bir-birindən fərqli olmayıblarmı? Bir-birilərindən bu gözəllikləri ilə seçilməyiblərmi? Biz nə üçün müasirləşdikcə özümüzdən uzaqlaşırıq? Nə üçün Allahın verdiyi qaşları ləğv edib yerinə şahə qalxan qaş döydürürük? Nə üçün püstə ağzımızı qarpıza çeviririk? Nə üçün qıvrılıb yuxarı qalxan, gözlərimizə işığın düşməsini əngəlləyən kirpiklərlə gəzməli oluruq?

Görəsən müasirlik budurmu? Müasirlik deyəndə ifratmı başa düşülməlidir? Əsla. Məni bu silsilədən olan bütün yazılarımda geridə qalmış geridə qalmış hesab edənlər az deyil, bilirəm. Bilsinlər, ziyanı yoxdur. Lakin elə bilirəm fikirlərimlə razılaşanlar olar ki, müasirlik bu qədər ifrata xidmət etməməlidir. Bizlər bir-birimizə nə üçün oxşamalıyıq ki? Əksinə, özümüzə məxsusluğumuz ilə bir-birimizdən fəqlənməliyik. Məhz bu halda qadın gözəlliyi ortaya çıxır.

Gözəlliyimizi, həm də təbii gözəlliyimizi kosmetoloqların əllərində məhv etməyək, əziz qadınlar... Bir-birimizə deyil, özümüzə oxşayaq!



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Qarabağ: Füzulinin Azərbaycan iqtisadiyyatındakı rolu






**II YAZI**

Qarabağ işğalda olduğu müddətdə Azərbaycan iqtisadiyyatından əhəmiyyətli pay da işğal edilmiş sayılırdı. Çünki Qarabağın təbii ehtiyatlarla zəngin torpağı ölkəmizin iqtisadi gəlirlərində əhəmiyyətli paya malik idi. Belə ki, Dağlıq Qarabağda 5 qızıl, 7 civə, 2 mis, 1 qurğuşun və sink, 1 daş kömür, 6 gəc, 4 vermikulit, 1 soda istehsalı üçün xammal, 12 əlvan və bəzək daşları, 10 mişar daşı, 21 üzlük daşı, 9 gil, 20 sement xammalı, 8 müxtəlif növ tikinti daşları, 6 əhəng xammalı, 10 qum-çınqıl, 4 tikinti qumu, 1 perlit, 8 pemza-vulkan külü, 16 yeraltı şirin su və 11 mineral su yatağı var. Bundan əlavə Qarabağ nadir bitki örtüyü ilə də dünyada məşhur olan bir ərazi olub.

### Ən qədim yaşayış məskəni

1993-cü ildə Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilən Füzuli rayonu 29 il ara ilə iki dəfə işğaldan azad edilib. 1994-cü il Horadiz əməliyyatı zamanı rayonun bir hissəsi işğaldan azad edildikdən sonra 2020-ci il 17 oktyabr tarixində Füzuli rayonu işğaldan tam azad olunub. Füzuli rayonunun əhalisi Qarabağ müharibəsində ölkəmizdən ən çox itkin və şəhid verən rayondur. Füzulinin 1100-dən çox şəhid və itkini, 113 girovu, 1450 nəfər müxtəlif dərəcəli əlili var.

Füzuli Qarabağ dağ silsiləsinin cənub şərq ətəklərindən Araz çayına qədər maili düzənlik və alçaq sahələri əhatə edir. O, Cəbrayıl, Xocavənd, Ağcabədi, Beyləqan rayonları və Araz çayı boyunca İranla həmsərhəddir. Rayonun əsası 1930-cu ildə qoyulub və Qaryagin adlandırılıb. 1959-cu ilin aprelində böyük şairimiz Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə Qaryagin rayonunun adı dəyişdirilərək Füzuli adlandırılıb.

Füzuli rayonu ərazisində müxtəlif dövrlərdə Qaraköpəktəpədə, Qarabulaq kurqanlarında, Günəştəpədə, Quruçay sahillərində və digər yerlərdə tədqiqatlar aparılıb, Azərbaycanın qədim kökə sahib olduğu sübut edilib. 1968-ci ilin yayında mərhum arxeoloq-alim Məmmədəli Hüseynov tərəfindən aşkar olunmuş preneandertal-Azıxantrop adamının alt çənəsinin sümükləri rayon mərkəzindən 15 km aralı məsafədə yerləşən Azıx mağarasında tapılıb. Azərbaycanın arxeologiya elminin böyük nailiyyətləri olan bu abidə Qarabağın Füzuli ərazisində vaxtilə qədim paleolit dövrünün mövcudluğunu sübut etdi.

### Vandallar tarixi silməyə çalışıblar

Füzuli rayonunda Əcəmi memarlıq məktəbinin təsiri ilə inşa olunan bir sıra memarlıq abidələri var idi. Çox təəssüf ki, Əhmədalılar və ya Arğalı türbəsi (XIII əsrin sonu), Babı türbəsi (1273-cü il), Aşağı Veysəlli kəndində hamar daşdan tikilən qüllənvari Mirəli türbəsi (XV əsr), Qarğabazar kəndində Hacıqiyasəddin məscidi (1682-ci il), Karvansara (1684-cü il), Qoçəhmədli kəndində məscid (XVIII əsr), Füzuli şəhərində Hacı Ələkbər məscidi (XIX əsr), "Məşədi Həbib" hamamı (XIX əsr), Merdinli kəndi yaxınlığında daşdan yonulan at, qoç fiqiuru qədim abidələri (XVIII-XIX əsrlər) və s. bu kimi tarixi əhəmiyyət daşıyan abidələrimiz ermənilərin vəhşi vandalizminə məruz qalıb, məhv edilib.

Füzuli rayonunun çoxşaxəli aqrar potensialı var. İşğal nəticəsində rayonun sərvətləri düşmən tərəfindən talan edilib, kənd yerlərində təsərrüfatla məşğul olan əhali məcburi köçkün vəziyyətində ölkənin digər və şəhər rayonlarında məskunlaşmağa məcbur qalıb, yaşayış binaları, ümumi infrastruktur, o cümlədən kənd təsərrüfatı istehsalı üçün zəruri infrastruktur obyektləri darmadağın edilib. 27 il davam edən işğal rayona təxminən 7 milyard ABŞ dolları civarında maddi zərər vurub.

### Füzuli rayonu bölgə iqtisadiyyatının onurğasıdır

Aqrar rayon olan Füzulidə iqtisadiyyatın əsas sahəsini kənd təsərrüfatı təşkil edir. Rayonda mühüm ərzaq məhsulu olan taxılçılığın inkişaf etdirilməsi istiqamətində tədbirlər həyata keçirilib. Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilərimizin kifayət qədər böyük iqtisadi potensialı var. Onların arasında Füzuli rayonu iqtisadi potensialına görə seçilən rayonlardan biridir.

Füzuli ötən əsrin 80-ci illərində pambıq, daha sonra üzüm və taxıl istehsalına görə respublikada aparıcı rayonlardan biri olub. 150 min əhalisi olan Füzulinin torpaqları əsasən məhsuldar torpaqlar hesab olunduğuna görə kənd təsərrüfatının inkişafı imkanları kifayət qədər böyükdür. Burada təkcə əkinçilik deyil, eyni zamanda heyvandarlığın inkişafı imkanları da var. Füzuli rayonu və eləcə də Füzuli şəhərinin işğaldan azad edilməsi imkan verəcək ki, qısa zamanda rayonun iqtisadiyyatı bərpa edilsin və respublika iqtisadiyyatına xüsusi töhfə verəcək rayon olsun.



Rayonda bir sıra təbii ehtiyatlar, o cümlədən inşaat materiallarının istehsalı üçün xammal bazası da mövcuddur. Bu da imkan verəcək ki, bölgədə sənayenin formalaşması, sənaye müəssisələrinin yaradılmasını daha rahat həyata keçirmək mümkün olsun. Füzuli rayonu turizm potensialına da malikdir. Xüsusən Dağlıq Qarabağa yaxın olan kəndlərinin təbiəti imkan verir ki, daxili turizm üçün yeni imkanlar yaransın.

Naxçıvan kooridorunu birləşdirəcək dəmiryolu Füzuli rayonundan keçəcək. Nəticədə işğaldan azad olunmuş ərazilərimizin nəqliyyat HAB-ı olaraq bu imkanlardan iqtisadi baxımdan daha çox faydalanmasına imkan verəcək. Bu da orada istehsal olunan məhsulların digər rayonların bazarına çıxarılması baxımdan çox vacibdir. Bütövlükdə Füzuli rayonu öz potensialı ilə qısa zamanda respublikanın iqtisadi baxımdan inkişaf etmiş aparıcı rayonların birinə çevrilmək imkanlarına malikdir.

### Heyvandarlıq və əkinçilik üçün münbit şərait

Rayonun mövcud torpaq örtüyündə əsasən boz və çəmənboz, şabalıdı və açıq-şabalıdı, dağ-şabalıdı, dağ boz-qəhvəyi torpaq tipləri yayılıb. Yuxarı Qarabağ iqtisadi rayonunda ən çox suvarılan torpaqlar Ağdamdan sonra Füzuli rayonundadır. Rayonun ərazisi əsasən Araz, Köndələnçay, Şapartı, Quruçay və Qozluçay çayları ilə suvarılır. Suqovuşan, Xudafərin və Sərsəng su anbarlarının Füzulinin əkin torpaqlarının suvarılması üçün istifadə edilməsi nəticəsində rayonun kənd təsərrüfatının inkişafına çox yüksək töhfə verməsi gözlənilir.

Füzuli rayonunda 25.5 min ha. örüş-otlaq və biçənək sahəsi var və əhalinin maldarlıq sahəsində olan təsərrüfatçılıq ənənələri olduqca qədimdir. Rayonda heyvandarlıq sektoru ilə bağlı aqrar potensial yüksək olub. Rayonun örüş-otlaq və biçənək sahələri respublikanın müvafiq sahələrinin təxminən 1,1 faizini təşkil edir. Ərazisində hakim olan iqlimin və bol sulu çaylarının verdiyi imkanlara görə rayon sakinləri həm bir illik əkmələr, həm də çoxillik əkmələri rahat becərə bilirdilər. Füzuli rayonunda sovetlər dönəmində əkinçiliyin əsas sahələri olan taxılçılıq, pambıqçılıq, şəkər çuğunduru, üzümçülük və tərəvəzçilik inkişaf etdirilmişdi. Rayon ərazisində taxıl zəmiləri, pambıq tarlaları, üzümlüklər, meyvə bağları geniş sahələri əhatə edirdi. Heyvandarlıq sahəsində isə baramaçılıq xüsusilə fərqlənirdi.

27 illik işğaldan azad edildikdən sonra Füzuli rayonda geniş quruculuq işləri aparılır, yeni məktəblər, xəstəxanalar, binalar tikilir, iqtisadi imkanlar genişləndirilir. Rayona vurulan maddi və mənəvi zərər nəhəngdir, lakin əminik ki dövlətimiz bu işin öhdəsindən gələcək və yaxın illərdə Füzuli rayonu yenidən öz iqtisadiyyatını, mədəniyyətini dirçəldəcək.

*Lalə Mehralı*

SON SƏHİFƏ

Səs

11 may 2023-cü il

# İnsanlar niyə bahalı telefona meyil edir?

***Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da bahalı mobil telefonlara böyük məbləğdə vəsait ayıran, bunu prestij hesab edən insanlar var. Bəzən bu addımı atanlar arasında maddi vəziyyəti yaxşı olmayanlara, prestij üçün kredit yükünün altına girənlərə də rast gəlinir. Bəs, insanlar bahalı mobil telefonu niyə alırlar? Bunun psixoloji tərəfləri varmı?***



"Uzun müddətdir ki, bütün dünyada minimalizm bir dəb halını alıb. İnsanlar minimal şeylərlə yeniliklər etməyə və bu yeniliklərlə digərlərini təəccübləndirməyə çalşırlar. Bildiyiniz kimi, dünyanın təbii sərvətləri tükənir. Bununla əlaqədar ekoloqlar, ictimai xadimlər, jurnalistlər, alimlər həyəcan təbili çalır. İnsan sayı artdıqca onun tələbatı da artır. Ona görə də insanlar minimalist düşüncə və yaşam tərzinə keçməlidir. Amma nədənsə biz Azərbaycanda bunun şahidi olmuruq. Ölkəmizdə mobil telefon, kompyuter, paltaryuyan maşınlar, avtomobillərlə bağlı düşüncələrə nəzər salsaq, görərik ki, cəmiyyətdə tutduğu mövqeyindən asılı olmayaraq insanlar ayaqlarını yorğanına görə uzatmır. Bahalı və iri zallarda toylar keçirir, yüksək qiymətli maşınlar, mobil telefonlar, paltarlar alırlar". Bu sözləri məsələ ilə bağlı SİA-nın sorğusuna cavab olaraq VCA və YYSİB sədri yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib.

O bildirib ki, indi yeniyetmələr valideynlərini kredit almağa vadar edərək bahalı smartfonlar aldırırlar: "Bunu prestij kimi görürlər. Bütün dünyada belə hal gülünc görünür. İnsanların hər hansı bir aləti özlərinin xeyrinə istifadə etdikləri bir zamanda bizim millətin yersiz şəkildə sağa-sola pul xərcləyərək daha sonra maliyyə problemləri yaşayırlar. Bu, yalnız smartfonlar deyil, həmçinin geyimlər, ziynət əşyaları, avtomobillər və s. ilə də bağlıdır. Camaat nə deyər düşüncəsi ilə atılan addımlar nəticədə insan şəxsiyyəti və mənəviyyatının aşınmasına gətirib çıxarır. Düşünürəm ki, artıq belə şeyləri geridə qoymaq lazımdır".

Mövzu ilə bağlı münasibət bildirən psixoloq Aytən Ələkbərova qeyd edib ki, həqiqətən də bu gün bahalı telefonlar və nömrələr gündəmdədir: "Məsələn, bəzi biznes sahibləri belə bahalı telefonlar yaxud nömrələrdən reklam məqsədiylə, öz işlərini, məhsullarını ictimaiyyətlə bölüşmək üçün istifadə edirlər. Bu, diqqəti çəkmək və yaddaşda qalmaq məqsədi daşıyır. Əslində, bu, psixoloji olaraq normal davranışdır. Bəzi insanlar elə düşünür ki, yekəxanalıq etməkdən ötrü belə bahalı şeylərdən istifadə edirlər. Amma heç kim fikirləşmir ki, həmin adamlar həmin telefonun funksiyaları sayəsində nələr əldə edə bilir. Bu psixoloji düşüncə ilə insanlar bahalı mobil telefonlara üstünlük verirlər".

***Ləman Əlizadə***

## 40 yaşlı arvadını öldürən ər tutuldu

Bakıda 40 yaşlı qadın qətlə yetirilib, əri saxlanılıb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, mayın 10-də saat 12:30 radələrində paytaxtın Sabunçu rayonunda evlərin birində 1983-cü il təvəllüdlü Quliyeva Sevinc Fəxrəddin qızının kəsilmiş-deşilmiş xəsarətlərdən ölməsi barədə polisə məlumat daxil olub. Cinayət əməlini törətməkdə şübhəli bilinən S.Quliyevanın həyat yoldaşı, 1977-ci il təvəllüdlü Zöhrab Quliyev Quləli oğlu polis əməkdaşları tərəfindən saxlanılıb. O, polisə könüllü gəlib. İlkin məlumata görə hadisə qısqanclıq zəminində baş verib. Araşdırma aparılır.



# Aliment ödəməməyin cəzası nədir?

***"Aliment latın sözü olan "alimentium" sözündən götürülmüş, mənası saxlama üçün vəsait, öhdədə olma deməkdir. Aliment hüquq münasibətlərinə görə ailənin bir üzvləri ailənin digər üzvlərini maddi cəhətdən təmin etməlidir". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, Yusif Allahverdiyev və Partnyorları vəkil bürosunun vəkili Murad Hüseynov deyib.***



VƏKİL AÇIQLADI

Onun sözlərinə görə, aliment öhdəliyi dedikdə əksər hallarda yalnız ata-ananın yetkinlik yaşına çatmayan övladlarının saxlanılması üçün vəsait ödəməli olmaları öhdəliyi başa düşülsə də, alimentin dairəsi təkcə bununla məhdudlaşmır: "Belə ki, Azərbaycan Respublikasının Ailə Məcəlləsində valideynlərin yetkinlik yaşına çatmayan uşaqları üçün ödəməli olduğu alimentdən başqa aliment öhdəliyinin digər formaları — əmək qabiliyyəti olmayan yetkinlik yaşına çatmış övladların aliment almaq hüququ, maddi yardıma ehtiyacı olan əmək qabiliyyəti olmayan valideynlərin əmək qabiliyyəti olan övladlarından aliment almaq hüququ, əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan ər və ya arvadın bir-birindən aliment tələb etmək hüququ, hamiləliyi dövründə və ümumi uşaqlarının doğulduğu gündən üç il ərzində arvadın ərindən aliment tələb etmək hüququ, 18 yaşınadək əlilliyi müəyyən edilmiş və ya orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş 18 yaşından yuxarı ümumi uşağa qulluq edən və ehtiyacı olan ər və ya arvadın aliment tələb etmək hüququ, zəruri vəsaitə malik olan baba və nənədən yardıma ehtiyacı olan, yetkinlik yaşına çatmayan və öz valideynlərindən maddi yardım ala bilməyən nəvələrin aliment tələb etmək hüququ və s. kimi aliment növləri öz əksini tapmışdır.



Alimentin ödənilməməsi, məhkəmə qərarını icra edilməməsi cinayət və inzibati məsuliyyəti yaradır. Cinayət Məcəlləsinin 306.1-ci maddəsinə əsasən, qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını, qərarını və ya əmrini qərəzli olaraq icra etməmə və ya həmin məhkəmə aktlarının icrasına maneçiliyə görə iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya üç yüz iyirmi saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

İnzibati Xətalar Məcəlləsinin 528 ci maddəsinə əsasən, məhkəmə və ya digər orqanların qərarlarının icrası ilə əlaqədar icra məmurunun qanuni tələblərinin yerinə yetirilməməsinə və ya icra məmuru tərəfindən müəyyən olunmuş müddətdə borclunu müəyyən hərəkətləri etməyə və ya müəyyən hərəkətləri etməkdən çəkinməyə məcbur edən icra sənədinin üzrsüz səbəbdən icra edilməməsinə görə fiziki şəxslər beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir və ya işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti



nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq olunur, vəzifəli şəxslər min iki yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər üç min manatdan beş min manatadək məbləğdə cərimə edilir. İcra üçün təqdim edilmiş icra sənədinin itirilməsinə, onun vaxtında göndərilməməsinə və ya borclunun iş yeri və ya yaşayış yeri, onun gəlirləri və əmlak vəziyyəti haqqında dəqiq olmayan məlumat təqdim edilməsinə görə vəzifəli şəxslər min iki yüz manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.

İnzibati və cinayət məsuliyyətinə cəlb edilmiş şəxs, cəzasını çəkdikdən sonra alimenti ödənilməsini davam etdirməlidir. Məsuliyyətə cəlbetmə heç bir halda aliment öhdəliyini aradan qaldırmır. Aliment öhdəliyinin qəsdən yerinə yetirilməməsi şəxsin valideynlik hüququndan məhrum edilməsi üçün əsas ola bilər".

***Ayşən Vəli***

## ELAN

**2023-cü il ərzində "Tikinti-Quraşdırma Az NY TŞS" QSC-nin hesabına 24 000 manat gəlir daxil olmuşdur.Ondan 12 724.99 manatı əmək haqqı və bununla bağlı olan xərclər, 2 647.36 manatı sosial sığorta haqqı, 3 134.55 manat kommunal xərclər, 476.91 manatı bank xərci, 443.75 manatı digər xərclər, 2 075.07 manatı əmlak vergisi ödənilmişdir. Mənfəətdən 499.47 manat mənfəət vergisi ödənilmiş və 1 997.90 manat isə devidentin verilməsi üçün ayrılmışdır.**


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**